

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 76 (24.213)

*2 may 2023-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Azərbaycan-Türkiyə – bir millət, iki dövlət, bir yumruq!

### *Azərbaycan Prezidenti İlham Əliyev Türkiyəyə işgüzar səfər edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə İstanbula işgüzar səfərə gəlib.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı İstanbulun Atatürk Hava Limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Türkiyənin sənaye və texnologiya naziri Mustafa Varank və digər rəsmi şəxslər qarşıladılar.

* * *




Aprelin 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan İstanbulda keçirilən "TEKNOFEST" aerokosmik və texnologiya festivalında iştirak ediblər.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan, Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva qardaş ölkənin texnoloji inkişafının daha bir göstəricisi olan "Togg" avtomobili ilə festivalın keçirildiyi məkana gəldilər.

Yolboyu düzülən festival iştirakçıları prezidentləri, birinci xanımları gül-çiçək dəstələri və sürəkli alqışlarla qarşıladılar.

Sonra xatirə şəkli çəkdirildi.

Liviyanın Baş naziri **Əbdülhəmid Dibeybe** çıxışında "TEKNOFEST"ə dəvət edilməsini və bu tədbirdə iştirakını Türkiyə ilə Liviya arasında dərin tarixi əlaqələrin və iki xalqın birliyinin göstəricisi olduğunu dedi.

Müasir Türkiyənin inkişafında Rəcəb Tayyib Ərdoğanın rolunu vurğulayan Liviyanın Baş naziri bildirdi ki, Türkiyə bu gün uğurlu dövlət modelinin ən gözəl nümunəsidir. Bu gün biz xalqına, millətinə və Vətəninə, sözün həqiqi mənasında, xidmət edən bir Türkiyə modelini görürük.

Akkuyu Atom Elektrik Stansiyasının inşasının Türkiyənin imkanlarını daha da genişləndirəcəyini vurğulayan Əbdülhəmid Dibeybe diqqətə çatdırdı ki, bu gün Türkiyə dövləti müdrik rəhbərliyi, sahib olduğu böyük imkanları sayəsində bütün manelərə qarşı sarsılmaz mövqe nümayiş etdirir.

Fevralın 6-da baş vermiş zəlzələnin fəsadlarının Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi və türk xalqının əzmkarlığı sayəsində sürətlə aradan qaldırıldığını deyən Baş nazir bərpa işlərinin uğurla həyata keçirildiyini vurğuladı.

Əbdülhəmid Dibeybe bildirdi ki, əhatə coğrafiyasını ildən-ilə genişləndirən "TEKNOFEST" Türkiyənin kosmos, aviasiya və texnologiya sahələrində necə sürətlə inkişaf etdiyini göstərir. O, Liviyanın hava hücumundan müdafiə sistemlərinin gücləndirilməsinə verdiyi töhfələrə görə Türkiyə dövlətinə və "Baykar" şirkətinə təşəkkürünü bildirdi.

***

Sonra Azərbaycan Prezidenti İlham Əliyev çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

– Hörmətli Cümhurbaşqanı, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan, hörmətli Əminə xanım, hörmətli və əziz dostlar.

Qardaş ölkədə yenidən olmağımdan çox məmnunam. Sizə Azərbaycan xalqının səmimi salamlarını gətirmişəm. Bir il öncə "TEKNOFEST" festivalı Bakıda keçirilmişdir və əziz qardaşımla bərabər biz "TEKNOFEST"də iştirak etmişdik. Bu gün mən buradayam. Bu, bir daha onu göstərir ki, Türkiyə və Azərbaycan hər zaman bir yerdədir. Türkiyə və Azərbaycan dost, qardaş ölkələrdir.

Eyni zamanda iki il bundan öncə Şuşa Bəyannaməsinin imzalanması ilə Türkiyə və Azərbaycan rəsmən müttəfiq oldular. O tarixi Bəyannamənin Qarabağın tacı olan Şuşada imzalanmasının xüsusi önəmi var. Şuşa Azərbaycan xalqının əziz şəhəridir, Türk dünyasının əziz şəhəridir. Şuşanın işğaldan azad edilməsi nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdir. Türkiyə, onun Cümhurbaşqanı, qardaş türk xalqı daim bizim yanımızda idi.

İkinci Qarabağ savaşının ilk dəqiqələrindən son dəqiqələrinə qədər əziz qardaşım Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan bizim yanımızda idi. Onun açıqlamaları, onun mesajları Azərbaycanı birmənalı dəstəkləmişdi. O söyləmişdir ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır və bu, bizə əlavə güc verdi, əlavə ruh verdi.

Türkiyə son 20 il ərzində böyük və şərəfli yol keçmişdir. Hörmətli Cümhurbaşqanının liderliyi ilə Türkiyə dünya çapında söz sahibinə çevrilmiş, bizim bölgəmizdə sülhün, sabitliyin, təhlükəsizliyin qarantıdır. Türkiyə böyük Türk dünyasının birləşməsi işində çox böyük rol oynadı. Ötən ay türk dövlətlərinin Ankarada keçirilmiş Zirvə toplantısında da bütün türk dövlətləri əziz qardaşıma öz dəstəyini, öz hörmətini və bizim ümumi həmrəyliyimizi bildirmişdir. Türk dünyasının böyük coğrafiyası, böyük potensialı, böyük təbii qaynaqları, böyük hərbi gücü var. Türk dünyasının birləşməsində Rəcəb Tayyib Ərdoğanın Türk dünyası qarşısında tarixi xidmətləri vardır.

Bu gün Türkiyə Avrasiyanın ticarət, enerji, nəqliyyat, siyasi mərkəzidir. Gündən-günə Türkiyənin önəmi, rolu artır. Türkiyənin güclü sənayesi həm Türkiyəni gücləndirir, həm də Türkiyənin müttəfiqlərini gücləndirir. Türk Ordusu bu gün dünya çapında ən öndə olan orduların sırasındadır. Türkiyənin müdafiə sənayesi bu gün bütün dünya tərəfindən qəbul edilir. Ən inkişaf etmiş, ən çağdaş, ən modern müdafiə sənayesi həm Türkiyəni, həm bizi gücləndirir və uzun illər, bundan sonra Türkiyənin təhlükəsizliyini təmin edəcəkdir.

Bu gün "TEKNOFEST"də iştirak edərkən "TEKNOFEST"in qurucusu, əziz qardaşımız Selçuk Bayraktarın xidmətlərini də qeyd etmək istərdim. Selçuk bəy Azərbaycanda dəfələrlə olmuş, o cümlədən azad edilmiş torpaqlarda, Şuşada. Son gəlişində – aprelin 3-də Azərbaycanda olarkən biz gələcək işbirliyi haqqında danışdıq və Azərbaycanda "Bayraktar" mərkəzinin yaradılması haqqında razılığa gəldik. İnşallah, yaxın gələcəkdə Azərbaycanda "Bayraktar" mərkəzi yaradılacaq, orada təhsil, xidmət, istehsal da



olacaqdır. Selçuk bəy Bakıda olarkən "Kızılelma"nın bir maketini hədiyyə etdi. Mən fürsətdən istifadə edərək "Kızılelma" ilə bağlı bütün qardaşlarımızı təbrik etmək istəyirəm və ümid edirəm ki, yaxın gələcəkdə "Kızılelma" Azərbaycanın səmasında da olacaqdır. "Kızılelma" havada, "Altay" və "Togg" quruda, "Anadolu" dənizdə – bugünkü Türkiyə budur.

Bir neçə gündən sonra Azərbaycan xalqı çağdaş Azərbaycan dövlətinin banisi, qurucusu Heydər Əliyevin 100 illiyini qeyd edəcək. Heydər Əliyev demişdir: "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir". Bu gün biz bunu sübut edirik. Bu gün bütün atalarımızın, əcdadlarımızın ruhu şaddır. Çünki Türkiyə və Azərbaycan bir yerdədir. Atam demişkən, "Bir millət, iki dövlət", əlavə də etmək istəyirəm, "Bir yumruq!".

Mən bu il üçüncü dəfə qardaş ölkəyə səfər edirəm. Fevral ayında olmuşam, mart ayında olmuşam, bu gün buradayam. Əziz qardaşım, növbə Sizindir. Biz Sizi gözləyirik, bütün Azərbaycan xalqı Sizi gözləyir, Sizi öpür, qucaqlayır, Sizə öz hörmət və sevgisini çatdırır. Türkiyə-Azərbaycan birliyi əbədidir!

***

"TEKNOFEST" çərçivəsində Azərbaycan dövlətinin zəlzələnin baş verdiyi Kahramanmaraş vilayətində inşa edəcəyi min ev, məktəb, məscid və digər infrastruktur obyektlərindən ibarət yaşayış kompleksinin onlayn rejimdə təməlinin qoyulması mərasimi oldu.

Azərbaycanın Türkiyəyə bu qardaşlıq köməyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən Türkiyə Prezidenti **Rəcəb Tayyib Ərdoğan** dedi:

– Əziz xalqım, xanımlar və cənablar.

Əziz qardaşım İlham Əliyev lap əvvəldən mərkəzi Pazarcık olan zəlzələdə bizi heç vaxt yalnız qoymadı. İlk andan etibarən axtarış-xilasetmə heyətləri Kahramanmaraşda bizimlə birlikdə oldu. Onunla da kifayətlənmədi, daha sonra İlham qardaşım Kahramanmaraşda min evin inşa ediləcəyinə söz verdi. Təbii ki, orada məktəbi, məscidi, yataqxanası və yaşayış binaları olan bir Azərbaycan şəhəri inşa etməyi qərara aldı. Bu gün fürsətdən istifadə edərək, indi onun təməlini qoyacağıq. Vahid Kirişçi bəy qarşımızdadır.

Türkiyənin kənd təsərrüfatı və meşə naziri **Vahid Kirişçi**: – Ehtiramımızı ifadə edirəm, cənab Prezidentim. Buradakı iştirakçılar adından Zati-alinizi, möhtərəm Prezidenti, hörmətli xanımları dərin ehtiramla salamlayıram.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** – İndi ətrafı yaxından göstərin, harada nə var görək. Layihə möhtəşəmdir. Bu layihəni, İnşallah, qısa müddətdə haqqı çatanlara Azərbaycanın əli ilə təqdim edəcəyik.

***

Sonra yaşayış kompleksinin təməli qoyuldu.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** – İlham qardaşım deyir ki, bir ildə başa çatdırılmalıdır, xeyirli olsun.

**Prezident İlham Əliyev:** – Xeyirli olsun.

***

Daha sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevə Türk dünyasının böyük oğlu, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə hazırlanmış xatirə əsginasını təqdim etdi.

***

Festivalda çıxış edən Türkiyə Prezidenti **Rəcəb Tayyib Ərdoğan** dedi:

– Azərbaycan Prezidenti əziz qardaşım İlham Əliyev.

Liviyanın Baş naziri qardaşım Əbdülhəmid Dibeybe.

Əziz istanbullular, xanımlar və cənablar, "TEKNOFEST"in hörmətli iştirakçıları, əziz gənclər.

Sizi ən səmimi hisslərimlə, sevgi və məhəbbətlə salamlayıram.

Maşallah, bu il də İstanbulda "TEKNOFEST" başqa cür gözəldir. Burada sizin vasitənizlə ölkəmizin 81 vilayətindəki bütün gənc ürəklərə salamlarımı göndərirəm. Könül coğrafiyamızın hər tərəfindəki gənclərimizi, gənc qardaşlarımızın hamısını buradan bir

*Ardı 2-ci səhifədə*

daha sevgi ilə salamlayıram.

Dünyanın bir nömrəli aviasiya, kosmik və texnoloji festivalı "TEKNOFEST"də sizlərlə bərabər olmaqdan böyük məmnunluq duyuram. İstanbulumuzdan və Türkiyənin müxtəlif şəhərlərindən "TEKNOFEST"ə təşrif buyuran gənclərimizə "İstanbulumuza xoş gəldiniz!" deyirəm.

Azərbaycan Prezidenti, hörmətli qardaşım və dostum İlham Əliyevə xanımı ilə birlikdə bilavasitə iştirak etdiyi üçün təşəkkür edirəm.

Eyni qaydada Liviyanın Baş naziri Dibeybe qardaşıma da təşəkkür edirəm.

Şöhrəti ölkəmizin sərhədlərini də aşan altıncı "TEKNOFEST"də sizlərlə birlikdəyik. Birincisini 2018-ci ildə keçirdiyimiz "TEKNOFEST", şükür olsun, artıq öz sahəsində bir markaya çevrilib. Keçən il Bakıda can azərbaycanlı gənclərimizlə "TEKNOFEST" sevincini yaşadıq. Samsundan Qaziantepə qədər ölkəmizin müxtəlif vilayətlərində texnologiyaya, müdafiə sənayesinə, elmə marağı olan gənclərimizlə bir araya gəldik. Builki texnologiya bayramımızı indi İstanbulda keçiririk, daha sonra İnşallah, Ankarada təşkil edəcəyik.

Milli texnoloji həmləmizin konkret nümunələrinin nümayiş etdirildiyi "TEKNOFEST"in ölkəmizə, millətimizə və siz gənclərimizə xeyirli olmasını diləyirəm. Bizlərə bu qürur mənzərəsini yaşadan T3 Vəqfinə, nazirliklərimizə, bütün tərəfdaş qurum və təşkilatlarımıza təşəkkür edirəm. Müsabiqəyə qatılan, yer tutan, layihələri və fikirləri ilə qarşıda yeni üfüqlər açan bütün qardaşlarımızı səmimi qəlbdən təbrik edirəm.

"TEKNOFEST"də iştirak üçün müraciət edən komandaların sayının ildən-ilə dəfələrlə artdığını vurğulayan Türkiyə Prezidenti dedi: "Bu festivala 2018-ci ildə 4333 komanda ilə Bismillah demişdik. Bu il 81 vilayət və 96 ölkədən 333 min komanda, 1 milyon iştirakçı müraciət edib. Yarışların kateqoriyası da 14-dən 41 əsas və 102 alt kateqoriyaya çatıb. İştirakçıların sayının artması ilə birlikdə mükafatlarımızın məbləği də yüksəlib. Cəmi 4 milyon mükafat və dəstək məbləği ilə başlayan proses 44 milyon lirəyə çatıb. Rekordların və ilklərin festivalı olan "TEKNOFEST"in qarşıdakı dövrdə uğur səviyyəsinin daha da yüksələcəyinə inanıram".

Fevralın 6-da baş verən zəlzələlərdən sonra əhalinin harayına çatan T3 Vəqfini və "Baykar" şirkətini təbrik edən Rəcəb Tayyib Ərdoğan vurğuladı ki, "Baykar" şirkəti "Əsrin fəlakəti" qarşısında nümayiş etdirdiyi nümunəvi mövqe ilə bu millətin doğma övladı olduğunu bir daha ortaya qoydu. Dövlət başçısı T3 Vəqfinin və "TEKNOFEST" könüllülərinin dəfələrlə bölgəyə gedib zəlzələdən zərər çəkənlərin çətin günlərində yanlarında olduqlarını xatırladaraq onlara minnətdarlığını ifadə etdi.

Kahramanmaraşda təməli qoyulan evlərə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirən Türkiyə Prezidenti dedi: "Kahramanmaraşda təməlini bir az əvvəl birlikdə qoyduğumuz evlər üçün İlham qardaşıma da çox təşəkkür edirəm. Azərbaycan dövləti və xalqı bu müddətdə dostluğun və qardaşlığın nə demək olduğunu göstərdi".

Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyənin yüksək texnologiyalara əsaslanan layihələr həyata keçirdiyini qeyd edərək vurğuladı: "Təkcə son aylarda yaşadığımız inkişafı sizlər də gördünüz. Bir az əvvəl aziz qardaşım İlham Əliyev də dedi: "Kızılelma" havaya qalxdı, "Togg" satışa çıxarıldı. Budur, "Kızılelma", "Akıncı" qarşımızdadır, "TCG Anadolu" gəmisi Dəniz Qüvvələrinə təqdim edildi".

İndiyədək "TCG Anadolu" gəmisini 100 minə yaxın vətəndaşın ziyarət etdiyini diqqətə çatdıran Türkiyə Prezidenti Qara dənizdə çıxarılan təbii qazın istismarına başlanılmasını, milli döyüş təyyarəsinin, "Gökbey" helikopterinin, "Hürjet" və "ATAK-2" qırıcılarının, "Altay" tankının istifadəyə verilməsini Türkiyənin son illərdə böyük uğurlarının göstəricisi kimi dəyərləndirərək, "TEKNOFEST"in bütün bu nailiyyətlərin rəmzi olduğunu qeyd etdi.

Türkiyənin son illərdə kosmik sahədə də böyük uğurlar qazandığını qeyd edən Prezident Rəcəb Tayyib Ərdoğan İMECE peykinin kosmosa göndərilməsinin əhəmiyyətini vurğulayaraq, Beynəlxalq Kosmik Stansiyaya yola düşəcək türk pilotlar Alper Gezeravcıya və Tuva Cihangir Ataseverə uğurlar arzuladı.

***

Çıxışlardan sonra "TEKNOFEST" çərçivəsində keçirilmiş müsabiqələrin qaliblərinin mükafatlandırılması mərasimi oldu.

Müsabiqənin qalibləri ilə xatirə şəkilləri çəkdirildi.

"Kızılelma" pilotsuz uçuş aparatının səmada manevrləri izlənildi.

"Baykar" şirkətinin İdarə Heyətinin sədri Selçuk Bayraktar Azərbaycan Prezidenti İlham Əliyevə, Liviyanın Baş naziri Əbdülhəmid Dibeybeyə və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana xatirə hədiyyələri təqdim etdi.

***

Qeyd edək ki, milli texnoloji həmlə konsepsiyası ilə texnologiya sahəsində sürətlə inkişaf edən Türkiyənin altıncı ildir, təşkil etdiyi builki "TEKNOFEST" festivalı aprelin 27-də start götürüb. Mayın 1-dək davam edəcək festival Türkiyə Texnologiya Komandası Vəqfinin (T3 Vəqfi), Sənaye və Texnologiya Nazirliyinin birgə təşkilatçılığı, qardaş ölkənin milli texnoloji sistemində mühüm rol oynayan dövlət, özəl, elm və media qurumlarından ibarət 120-dək qurumun tərəfdaşlığı ilə keçirilir. İldən-ilə genişlənən "TEKNOFEST"də beş gün ərzində texnologiya, elm, aviasiya-pilotaj nümayişləri, sərgilər, konfranslar, texnoloji yarışlar, mükafatlandırma mərasimləri və digər tədbirlər təşkil olunacaq.

Festival çərçivəsində keçirilən texnoloji yarışlar öz arzularını reallığa çevirmək istəyən gənclərin layihələrinin təqdimatı üçün ideal platforma təklif edir. Məhz bunun nəticəsidir ki, bu möhtəşəm festivalın iştirakçılarının sayı ildən-ilə sürətlə artmaqdadır. Belə ki, "TEKNOFEST"in ilk dəfə təşkil olunduğu 2018-ci ildə tədbirə 4333 komanda və 20 min iştirakçı qatılmışdısa, bu il komandaların sayı 333 mindən, iştirakçıların sayı isə 1 milyondan çoxdur. Builki "Texnoloji yarışlar"da 102 müxtəlif kateqoriya üzrə 41 yarış keçirilir.

Xatırladaq ki, 2022-ci il mayın 26-29-da "TEKNOFEST" ilk dəfə Türkiyədən kənarda – Azərbaycanda keçirilib. "TEKNOFEST Azərbaycan"ın açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, birinci xanımlar Mehriban Əliyeva və Əminə Ərdoğan, eləcə də Nobel mükafatı laureatı Əziz Səncər iştirak ediblər.

"TEKNOFEST Azərbaycan" festivalını 300 minə yaxın insan ziyarət edib. Festival çərçivəsində üç beynəlxalq tədbir və səkkiz texnoloji müsabiqə təşkil olunub. Həmin müsabiqələrdə 5 mindən çox gəncin formalaşdırdığı 1000-dən çox komanda yarışıb.

* * *

"TEKNOFEST" festivalında iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan "CNN Türk" televiziyasının müxbiri Fulya Öztürkün suallarını cavablandırıblar.

**Prezident İlham Əliyev** müsahibədə deyib: – Çox xoşbəxtəm ki, qardaşımın yanındayam, burada da olmalıyam. Bu gözəl, möhtəşəm bayramı bərabər qeyd etdik, təbriklərimizi çatdırdıq. Mən söylədim ki, bu il artıq üçüncü dəfədir, Türkiyədəyəm. İndi növbə qardaşımındır. İnşallah, seçkilərdən sonra onu Azərbaycanda gözləyirik.

**Fulya Öztürk:** – Mehriban xanım da buradadır. Salam, necəsiniz?

**Mehriban xanım Əliyeva:** – Salam, sağ olun. Çox qürur duyuruq.

**Əminə xanım Ərdoğan:** – Bu xoş günü birlikdə qeyd edirik və buna görə çox təşəkkür edirik. Bu xoş günümüzdə bizimlə olduqlarına və zəlzələ zonasında etdikləri yardımlara görə sonsuz təşəkkürlərimizi bildiririk.

**Mehriban xanım Əliyeva:** – Sağ olun. Çox böyük qürur duyuruq.

**Fulya Öztürk:** – "TEKNOFEST" ötən il Azərbaycanda keçirilmişdi, yenidən təşkil olunacaqmı?

**Prezident İlham Əliyev:** – Gözləyirik, əlbəttə, keçiriləcək. Mən dedim ki, Azərbaycanda "Bayraktar" Mərkəzi qurulacaq, "TEKNOFEST" yenə də gələcək. Keçən il çox gözəl bir tədbir keçirildi. Gözləyəcəyik, sizi də gözləyirik.



**Fulya Öztürk:** – İnşallah, gələcəyik. İkinci Qarabağ müharibəsi qazisi də burada, "TEKNOFEST"dədir. Adınızı öyrənə bilərəm?

**Qazi:** – İkinci Qarabağ müharibəsinin qazilibi, iki ayağını da ağır döyüşlərdə itirmiş qazi Taleh Camalov. Vətən sağ olsun.

**Prezident İlham Əliyev:** – Gör, nə qədər medalı var. "Xocavənd", "Cəbrayıl", "Füzuli", "Fərqlənməyə görə", "Xarı bülbül".

**Qazi Taleh Camalov:** – Bir ay döyüşdə oldum.

**Prezident İlham Əliyev:** – Qəhrəmandır, bizim torpaqlarımızı azad edənlər bunun kimi qəhrəmanlardır.

**Qazi Taleh Camalov:** – Sizin sayənizdə, Selçuk Bayraktar qardaşımızın sayəsində, onların silahlı PUA-larının sayəsində.

Səmada nümunəvi uçuşlar edən "Kızılelma" və "Akıncı" PUA-larını göstərən Selçuk Bayraktar dedi: – "Kızılelma" və "Akıncı" bərabər uçurlar. Bu uçuş forması dünyada ilk dəfədir.

**Prezident İlham Əliyev:** – "Akıncı" və "Kızılelma".

**Fulya Öztürk:** – Nümunəvi uçuş edirlər.

***

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan "TEKNOFEST"in keçirildiyi məkandan ayrılarkən yenidən Fulya Öztürkün suallarını cavablandırıblar.

**Fulya Öztürk:** – Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyev hazırda "Togg" avtomobilindədirlər. "Togg"u idarə etmək necə hissdir?

**Prezident İlham Əliyev:** – Gözəl, çox gözəl.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** – Bu qızı tanıyırsan?

**Prezident İlham Əliyev:** – Təbii ki, tanıyırıq. Bu, bizim qızdır. İkinci Qarabağ savaşında ən təhlükəli yerlərə gedən jurnalistdir. Bizimlə kədərləndi, bizimlə sevindi, Qələbəni də bizimlə qeyd etdi. Bu qız bizim qızımızdır.

**Əminə xanım Ərdoğan:** – Maşallah, qəhrəmandır.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** – Əsl vətənpərvərdir.

**Fulya Öztürk:** – Biz qardaşıq.

**Prezident İlham Əliyev:** – Bəli.

**Fulya Öztürk:** – Cənab Prezident, necəsiniz? Sağlamlığınız necədir?

**Prezident Rəcəb Tayyib Ərdoğan:** – Şükür olsun, çox yaxşıyam.

**Prezident İlham Əliyev:** – Maşallah, hər kəsdən daha gözəl, cavan, gənc.

**Fulya Öztürk:** – Cənab Prezident, Sizi yaxşı gördük, maşallah.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** – Sağ ol.

**Fulya Öztürk:** – Çox təşəkkür edirəm, yolunuz açıq olsun.

**Prezident İlham Əliyev:** – Sağ ol.

* * *

Aprelin 29-da İstanbulda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan ilə birgə nahar ediblər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə İstanbula işgüzar səfəri aprelin 29-da başa çatıb.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı İstanbulun Atatürk Hava Limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan yola saldılar.

## Azərbaycan Prezidenti İlham Əliyev "Boeing" şirkətinin icraçı vitse-prezidentini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da "Boeing" şirkətinin icraçı vitse-prezidenti, "Boeing Commercial Airplanes" şirkətinin prezidenti və baş icraçı direktoru Stenli Dili qəbul edib.

Görüşdə Azərbaycan ilə "Boeing" şirkəti arasında 8 ədəd müasir "Boeing 787 Dreamliner" təyyarəsinin alınmasına dair bu yaxınlarda razılaşmanın əldə olunması mühüm hadisə kimi qiymətləndirildi. Azərbaycan ilə "Boeing" şirkəti arasında uzun illərdir, uğurlu və etibarlı əməkdaşlığın həyata keçirildiyi vurğulandı.

Söhbət zamanı Azərbaycanda nəqliyyat sahəsində böyük işlərin həyata keçirilməsindən bəhs olundu, ölkəmizin mühüm beynəlxalq və regional nəqliyyat habına çevrildiyi, yeni hava limanlarının açıldığı qeyd edildi.

Qarabağda və Şərqi Zəngəzurda yeni hava istiqamətlərinin açılmasının önəmi vurğulandı, əməkdaşlıq əlaqələrinin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.

Görüşdə Formula 1 yarışının Azərbaycanda yüksək səviyyədə təşkil olunduğu bildirildi, ölkəmizə xeyli sayda turistin gəlməsinin önəmi vurğulandı. Azərbaycanın mötəbər tədbirlərin keçirildiyi məkana çevrildiyi və ölkəmizin beynəlxalq əməkdaşlıq işlərinə töhfə verdiyi qeyd edildi.



## Prezident İlham Əliyev Beynəlxalq Avtomobil Federasiyasının prezidentini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 30-da Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Məhəmməd Ben Sulayemi qəbul edib.

Görüşdə Azərbaycan ilə Beynəlxalq Avtomobil Federasiyası arasında uzun illər mövcud olan uğurlu əməkdaşlıqdan məmnunluq ifadə edildi.

Azərbaycanda Formula 1 yarışlarının yüksək səviyyədə təşkil edilməsinin əhəmiyyəti qeyd olundu. Vurğulandı ki, ölkəmizin uzun illər dünya səviyyəli çox önəmli tədbirlərə, o cümlədən idman yarışlarına ev sahibliyi etməsi beynəlxalq əməkdaşlığa mühüm töhfə verir.

Söhbət zamanı Azərbaycan ilə Beynəlxalq Avtomobil Federasiyası arasında əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

# “Bakı sindromu”

## Bakıda Formula 1 Azərbaycan Qran-Prisinin əsas yarışı keçirilib

### *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yarışa baxıblar*






Aprelin 30-da Bakı şəhər halqasında Formula 1 üzrə dünya çempionatının dördüncü – Azərbaycan Qran-Prisinin əsas yarışı keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri yarışa baxıblar.

Əvvəlcə Qran-Prinin açılış mərasimi keçirilib.

Açılış mərasimində Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub. Dövlət Himnini “Eurovision-2018” müsabiqəsində Azərbaycanı təmsil edən Aysel Məmmədova səsləndirib.

Açılış mərasimindən sonra Formula 1 Azərbaycan Qran-Prisinin əsas yarışı başlayıb.

Formula 1 yarışında hər biri iki pilotdan ibarət 10 komanda mübarizə aparıb. Pilotlar qalibi müəyyənləşdirmək üçün Bakı şəhər halqasında iki saat ərzində 51 dövrə vurublar. “Mercedes” komandasının heyətində Luis Hamilton və Corc Rassel, “Ferrari” komandasında Karlos Sayns və Şarls Lekler, “Williams”ın heyətində Aleksander Albon və Loqan Sarjent yarışıblar. “Red Bull Racing” komandasında Serxio Peres, Maks Ferstappen, “Alpha Tauri”də Nik de Vris və Yuki Tsunoda, “Alpine”da isə Pyer Qasli ilə Esteban Okon mübarizə aparıblar. Bundan başqa, “Alfa Romeo”nun heyətində Valtteri Bottas və Cou Quanju, “McLaren”də Oskar Piastri və Lando Norris yürüşdə iştirak ediblər. Pilotlar Niko Hulkenberq və Kevin Maqnussen “Haas”, Fernando Alonso və Lans Stroll “Aston Martin” komandasının idman şərəfini qoruyublar.

Formula 1 üzrə dünya çempionatının cari mövsümü 24 mərhələdən ibarətdir. Bakı Qran-Prinin dördüncü mərhələsinə ev sahibliyi edir. Uzunluğu 6 kilometr olan və hərəkətin saat əqrəbinin əksinə nizamlandığı trek məşhur almaniyalı memar Hermann Tilke tərəfindən hazırlanıb. Azadlıq meydanından başlayan trek Hökumət Evinin ətrafı ilə fırlanaraq Qız qalasına çatmaq üçün İçərişəhər ətrafında 2,2 kilometr dairə vurur və Neftçilər prospektinə çıxaraq başlanğıc yerində sona çatır. Trekin ən geniş yerinin eni 13 metrdir, ən dar hissəsi trekin İçərişəhər ətrafında olan hissələrində, o cümlədən 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edir.

İki saata yaxın davam edən gərgin idman mübarizəsinin sonunda “Red Bull Racing” komandasının meksikalı pilotu Serxio Peres Azərbaycan Qran-Prisinin qalibi adını qazanıb. Onun komanda yoldaşı Maks Ferstappen ikinci, “Ferrari”nin sürücüsü Şarl Lakler isə üçüncü pillədə yer alıblar.

Sonra Formula 1 Azərbaycan Qran-Prisinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Əvvəlcə qalib idmançının və komandanın şərəfinə Meksikanın və Avstriyanın Dövlət himnləri səsləndirilib.

Mükafatları pilotlara Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, gənclər və idman naziri Fərid Qayıbov, Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov, Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Məhəmməd Ben Sulayem və Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin icraçı direktoru Maqsud Fərzullayev təqdim ediblər.

Xatırladaq ki, Formula 1 Azərbaycan Qran-Prisinə aprelin 28-də start verilib. Azərbaycan Qran-Prisinin ilk günündə Formula 1 pilotları sərbəst yürüş və sıralanma yürüşlərində mübarizə aparıblar. Hər iki yürüşdə pilotlar 1 saat ərzində 6 kilometrlik Bakı trekində yarışıblar. Sərbəst yürüşdə “Red Bull Racing” komandasının pilotu Maks Ferstappen bütün rəqiblərini qabaqlayıb. “Ferrari”nin pilotu Şarl Lekler və “Red Bull Racing”in digər sürücüsü Serxio Peres ilk üçlüyü tamamlayıblar. Sıralanma turunu isə “Ferrari”nin pilotu Şarl Lekler qalibi kimi başa vurub. “Red Bull Racing”in üzvləri Maks Ferstappen ikinci, Serxio Peres isə üçüncü yerdə qərarlaşıblar. Bu qələbə sayəsində monakolu pilot cari mövsüm ilk, Bakı şəhər halqasında ardıcıl üçüncü poul qazanıb. Həmçinin bu, onun karyerasında qazandığı 19-cu nailiyyətdir. Aprelin 29-da isə sprint üçün təsnifat və sprint yarışları təşkil olunub. Təsnifat yarışında “Ferrari” komandasının pilotu Şarl Lekler birinci olub. “Red Bull Racing”in pilotları Serxio Peres və Maks Ferstappen ilk üçlüyü tamamlayıblar. Sprint yarışı isə S.Peresin qələbəsi ilə yekunlaşıb. Ş.Lekler ikinci, M.Ferstappen isə üçüncü olublar.

Builki dünya çempionatına martın 3-5-də Bəhreyn Qran-Prisi ilə start verilib. Sonrakı mərhələlər Səudiyyə Ərəbistanında və Avstraliyada keçirilib.

Beləliklə, 4 Qran-Pridən sonra pilotların siyahısına “Red Bull Racing” komandasının niderlandlı sürücüsü Maks Ferstappen başçılıq edir. Onun aktivində 93 xal var. Ferstappendən 6 xal geri qalan komanda yoldaşı – Bakı yarışının qalibi Serxio Peres ikinci sırada qərarlaşıb. İlk beşliyi 60 xalla Fernando Alonso (Aston Matin”), 48 xalla Luis Hamilton (“Mercedes”) və 34 xalla Karlos Saynz (“Ferrari”) tamamlayırlar.

Konstruktorlar kubokunun lideri isə “Red Bull Racing” (180 xal) komandasıdır. “Aston Martin” 87 xalla ikinci, “Mercedes” isə 76 xalla üçüncü pillədə yer alıb. Sonrakı yerlərdə “Ferrari” (62), “McLaren” (14), “Alpine” (8), “Haas” (7), “Alfa Romeo” (6), “Alpha Tauri” (2) və “Williams” (1) komandaları qərarlaşıb.

Formula 1 Azərbaycan Qran-Prisi çərçivəsində Bakıda Formula 2 yarışları da keçirilib. Bu yarışda hər biri iki pilotla təmsil olunan 11 komanda birincilik uğrunda mübarizə aparıb. Aprelin 28-də Formula 2 üzrə sərbəst və sıralanma yarışları təşkil olunub. Sərbəst yürüşdə “Preme Racing” komandasının pilotu Oliver Berman birinci olub. “Hitech”in üzvü İsak Hajar yarışı ikinci, “Campos Racing”dən Kuş Maini üçüncü pillədə başa vurublar. Sıralanma turunda da Oliver Berman fərqlənib. “Rodin Carlin” komandasının üzvü Enzo Fittipaldi ikinci, “ART Grand Prix”in pilotu Teo Purşer isə üçüncü pillədə yer alıblar. Ertəsi gün birinci sprint yarışında O.Berman bütün rəqiblərini qabaqlayıb. Onun komanda yoldaşı Frederik Vesti yürüşü ikinci, “Hitech”in pilotu Jak Krouford isə üçüncü pillədə başa vurublar. On dörd mərhələdən ibarət Formula 2 yarışına noyabrın 24-26-da Əbu-Dabidə yekun vurulacaq.

Azərbaycan Formula 1 yarışlarına yeddinci dəfədir ev sahibliyi edir. Avropa Qran-Prisi adlandırılan ilk yarış 2016-cı ildə təşkil olunub. Bu yarışda “Mercedes” komandasının pilotu Niko Rosberq birinci olub. Növbəti ildən Azərbaycan Qran-Prisi adını alan yarışlarda Daniel Rikkardo (Red Bull Racing, 2017), Luis Hamilton (Mercedes, 2018), Valtteri Bottas (Mercedes, 2019), Serxio Peres (Red Bull Racing, 2021), Maks Ferstappen (Red Bull Racing, 2022) qalib gəliblər. 2020-ci ildə Formula 1 Azərbaycan Qran-Prisi koronavirus pandemiyası səbəbindən keçirilməyib.

Dünya çempionatının Azərbaycan mərhələsində hər il müxtəlif pilotlar qalib gəlib. Azərbaycan Qran-Prisinin nəticəsinin gözlənilməzliyi onu daha da möhtəşəm edir. Formula 1 mütəxəssisləri buna “Bakı sindromu” adı veriblər.

## Prezident İlham Əliyev Özbəkistanın “Uzavtosanoat” Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədrini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Özbəkistanın “Uzavtosanoat” Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Uluqbek Rozukulovu qəbul edib.

Dövlətimizin başçısı, ilk növbədə, Özbəkistanda referendumun uğurla keçirilməsi münasibətilə Prezident Şavkat Mirziyoyevə təbriklərini çatdırmağı xahiş etdi. Referendumu qardaş Özbəkistanın hərtərəfli inkişafı və demokratiyanın möhkəmlənməsi istiqamətində mühüm addım kimi dəyərləndirən Azərbaycan Prezidenti qeyd etdi ki, bu referendum, eyni zamanda Özbəkistan Prezidentinin həyata keçirdiyi kursa xalqın göstərdiyi etimaddır.

Prezident İlham Əliyev Özbəkistana səfərləri zamanı bu ölkədə gedən böyük inkişaf proseslərinin şahidi olduğunu məmnunluqla qeyd etdi. Dövlətimizin başçısı Özbəkistan Prezidenti ilə keçirilən görüşlər zamanı əldə olunmuş razılaşmaların, o cümlədən avtomobil istehsalı sahəsində həyata keçirilən işlərin də əməkdaşlığın genişlənməsi baxımından önəmini vurğuladı.



Xoş sözlərə görə minnətdarlığını bildirən Uluqbek Rozukulov Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şavkat Mirziyoyevə çatdırmağı xahiş etdi.

Şavkat Mirziyoyevin Azərbaycanla əməkdaşlığa çox böyük önəm verdiyini vurğulayan qonaq dövlət başçılarının tapşırıqları əsasında azərbaycanlı həmkarları ilə daim əzmlə çalışdıqlarını diqqətə çatdırdı.

Uluqbek Rozukulov ölkəmizə səfəri çərçivəsində Hacıqabul Sənaye parkında iki istehsal müəssisəsinin – qaynaq və boyama fabriklərinin təməlqoyma mərasimində iştirak edəcəyi barədə dövlətimizin başçısına məlumat verdi. Qeyd etdi ki, hər iki müəssisə Azərbaycanda avtomobil istehsalının lokallaşdırılması istiqamətində növbəti addım olmaqla sənayenin bu sahəsinin inkişafına töhfə verəcək.

Görüşdə əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.

AZƏRTAC

## Şərurda şəhidin xatirəsinə bulaq-abidə ucaldılıb



Şərur rayonunun Püsyan kəndində şəhid leytenant Məmməd Zamanlının xatirəsinə inşa edilmiş bulaq-abidənin açılışı olub.

Açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynli, Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Ceyhun Cəlilov, Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov, hüquq-mühafizə orqanlarının əməkdaşları, şəhid ailələri, qazilər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Açılış tədbirində əvvəlcə şəhid leytenant Məmməd Zamanlının məzarı ziyarət olunub, Azərbaycan Respublikasının Dövlət Himni oxunub, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynli Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinin, o cümlədən şərurlu döyüşçülərin Vətən müharibəsindəki qəhrəmanlıqlarından, şəhidlərin gənclərə nümunə olan şərəfli ömür yolundan danışıb.

Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Ceyhun Cəlilov çıxış edərək bildirib ki, Vətənimizin müstəqilliyi, torpaqlarımızın azad olunması naminə gənclərimizin müqəddəs amalı Azərbaycan xalqının böyüklüyünü, müdrikliyini göstərir. İllər keçsə də, gələcək nəsillər onları hər zaman böyük minnətdarlıqla yad edəcəklər. Hər birimizin borcudur ki, bizə qələbə sevincini yaşadan şəhidlərimizi daim qəlbimizdə yaşadaq. Onların valideynlərinin qarşısında baş əyək, xidmət göstərək.

Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov 44 günlük Vətən müharibəsində düşməni məhv edən hərbçilərimizin şəhidlərin qanını yerdə qoymadığını, torpaqlarımızın işğaldan azad olunduğunu və qazanılan böyük Qələbənin tarixi əhəmiyyətini xüsusi qeyd edib, ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olmuş qəhrəman Vətən övladlarının xatirəsinin həmişə ehtiramla yad edildiyini diqqətə çatdırıb.

Tədbirdəki digər çıxış edənlər şəhid adının ucalığından, qəhrəmanlarımızın şanlı döyüş yolundan və şücaətindən söhbət açıblar.

Şəhid atası Rəhman Zamanlı qəhrəman övladının xatirəsinə ucaldılan abidənin inşasında əməyi keçən hər kəsə təşəkkürünü bildirib.

Şagirdlər vətənpərvərlik mövzusunda şeirlər səsləndiriblər.

Sonra şəhidin xatirəsinə həsr olunmuş bulaq-abidə kompleksinin açılışı olub. Bulaq-abidənin yerləşdiyi ərazidə bağ salınıb, ətrafda geniş yaşıllıq yaradılıb.

## Naxçıvan və Batumi şəhərləri arasında əlaqələr inkişaf edir



Acarıstan Muxtar Respublikasının paytaxtı Batumi şəhərinin 135-ci ildönümünə həsr olunmuş "Batumoba" bayram tədbiri keçirilib. Tədbirdə ölkəmizi Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov, Azərbaycanın Batumi şəhərindəki Baş konsulu Pərviz İsmayılzadə və digər rəsmi şəxslər təmsil ediblər.

Acarıstan Muxtar Respublikasının hökumət başçısı Tornike Rijvadze və Batumi meri Arçil Çikovani Batumi ilə qardaşlaşmış şəhərlərin stendləri ilə tanış olublar. Bildirilib ki, Batumi şəhəri dünyanın 8 ölkəsindən 42 şəhərlə, o cümlədən Azərbaycanın Naxçıvan şəhəri ilə qardaşlaşma haqqında memorandum imzalayıb. Tədbirdə bu şəhərlərdən 54 nəfər nümayəndə iştirak edib.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı muxtar respublikanın hökumət başçısını və şəhər rəhbərliyini bayram münasibətilə təbrik edib. Bildirib ki, 2012-ci ildə Naxçıvan və Batumi şəhərləri arasında qardaşlıq və əməkdaşlığa dair memorandum imzalanıb. Bu gün Naxçıvanla Batumi şəhəri arasında mövcud olan sıx dostluq və qardaşlıq əlaqələri daha da möhkəmlənir və inkişaf edir.

Mirsənani Seyidov Azərbaycanın qədim Naxçıvan şəhərinin milli ornamentlərini özündə əks etdirən xalçanı xatirə olaraq Batumi şəhərinin meri Arçil Çikovaniyə təqdim edib. A.Çikovani tədbirdə iştiraka və hədiyyəyə görə minnətdarlıq edib, ölkələrimiz, eləcə də Naxçıvan və Batumi şəhərləri arasındakı münasibətləri yüksək qiymətləndirib.

"Batumoba" bayramı çərçivəsində şəhərdə müxtəlif mədəni və əyləncəli tədbirlər, yarmarka, sərgi, idman yarışları, kino nümayişləri təşkil olunub, incəsənət ulduzları maraqlı konsert proqramı ilə çıxış ediblər.

**Xəbərlər şöbəsi**

## Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər keçirilib



*Mayın 1-də Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyub və Heydər Əliyev Muzeyini ziyarət ediblər.*

Naxçıvan Biznes Mərkəzində davam edən tədbirdə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın dövlət müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban verən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev açaraq Azərbaycan xalqının dövlətçilik ənənələrinin formalaşdırılmasında, Azərbaycançılıq məfkurəsinin mühüm elementlərinin inkişaf etdirilməsində Ümummilli Lider Heydər Əliyevin əvəzsiz xidmətlərindən danışıb. Bildirilib ki, müasir Azərbaycan tarixinin bir çox parlaq səhifələri, heç şübhəsiz ki, bu dahi şəxsiyyətin adı ilə, onun irimiqyaslı və çoxşaxəli dövlətçilik fəaliyyəti ilə bağlıdır. Vurğulanıb ki, Ulu Öndərin 1969-cu ildə siyasi hakimiyyətə gəlişindən sonra Azərbaycan böyük quruculuq və yaradıcılıq mərhələsinə, həyatın bütün sahələrində sürətli inkişaf və tərəqqi yoluna qədəm qoyub. Bu dövrdə milli gəlir, sənaye və kənd təsərrüfatında ümumi məhsulun həcmi dəfələrlə artıb, iqtisadiyyatın inkişaf etdirilməsinə əvvəlki onilliklərdə olduğundan daha çox əsaslı vəsait qoyulub, yüzlərlə iri zavod və fabrik tikilərək işə salınıb. Həmin illərdə digər sahələr ilə yanaşı, iqtisadiyyatın inkişafı istiqamətində də mühüm işlər görülüb. Hələ o illərdə bu tədbirləri həyata keçirən dahi şəxsiyyət Heydər Əliyev Azərbaycanın gələcəyini və bugünkü müstəqilliyini düşünürdü.

Tapdıq Əliyev Ümummilli Liderin Naxçıvan Muxtar Respublikasında cəmiyyət həyatının bütün sahələrini əhatə edən inkişafın möhkəm əsaslar yaratdığını, sonralar, ümumən, Azərbaycanın hər yerində, o cümlədən Naxçıvanda baş verən böyük yeniləşmə və inkişaf proseslərinin məhz həmin zəmin üzərində ucaldığını tədbir iştirakçılarının diqqətinə çatdırıb.



Qeyd olunub ki, Ulu Öndərin sosial-iqtisadi inkişaf konsepsiyası Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilməkdədir. Naxçıvanın bugünkü uğurlarının əsası məhz Ulu Öndər Heydər Əliyevin muxtar respublikaya rəhbərlik etdiyi 1991-1993-cü illərdə qoyuldu. Azərbaycanda ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasında iqtisadi islahatların aparılması, keçmiş planlı təsərrüfat sisteminin yerində bazar iqtisadiyyatına əsaslanan özəl sektorun yaradılması ilə yeni həyata başlanıldı. Sonda nazir kollektivi Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin yaradılmasının 22 illiyi münasibətilə təbrik edib.

Sonra nazirliyin Sahibkarlığın inkişafı şöbəsinin müdiri Xudakərim Məmmədov Ulu Öndərin ölkəmizdə, o cümlədən muxtar respublikada sahibkarlığın formalaşdırılması istiqamətində xidmətləri barədə məlumat verib. Qeyd edilib ki, həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda sahibkarlar təbəqəsi formalaşıb, özəl sektorun ölkənin sosial-iqtisadi inkişafında rolu artıb.

Sonra Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar hazırlanmış sənədli film nümayiş olunub.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***



*Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş dəyirmi masa keçirilib.*

Əvvəlcə tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsinin önünə gül dəstələri qoyublar, dünya şöhrətli siyasi xadimin xatirəsinə ehtiramlarını bildiriblər.

Sonra Heydər Əliyev Muzeyi ilə tanışlıq olub. Qonaqlara məlumat verilib ki, Naxçıvan şəhərinin mərkəzində yerləşən Heydər Əliyev Muzeyi 1999-cu il mayın 10-da Ümummilli Liderin həyatı və fəaliyyəti ilə bağlı olan 420 eksponatla fəaliyyətə başlayıb. Hazırda beş mindən çox olan eksponat ehtiramla qorunur, tədqiq və təbliğ edilir. Ulu Öndərin zəngin irsi və dövlətçilik təcrübəsinin öyrənilməsi gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində müstəsna rol oynayır.

Tədbir Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasında davam etdirilib. Muxtar respublikanın media nümayəndələrinin iştirak etdiyi dəyirmi masada Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının sədri Rauf Əliyev "Ulu Öndər Heydər Əliyev və Azərbaycan jurnalistikası" mövzusunda məruzə edib. Bildirilib ki, "Heydər Əliyev İli" çərçivəsində dahi şəxsiyyətin 100 illik yubileyi ölkəmizdə və muxtar respublikamızda silsilə tədbirlərlə təntənəli şəkildə qeyd olunur. Bu sırada muxtar respublikanın media orqanları öncüllük təşkil edir. Qürurla demək olar ki, bu gün Azərbaycanda Ulu Öndərin siyasi irsini ən yüksək səviyyədə təbliğ edən kütləvi informasiya vasitələri sırasında muxtar respublikamızın aparıcı media orqanları xüsusilə seçilir. Teleradiolarda marağı cəlb edən silsilə verilişlər hazırlanır, qəzetlərdə diqqəti çəkən məqalələr dərc olunur. Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası ilə Mətbuat Şurasının birgə təşkil etdiyi və Ulu Öndərin 100 illiyinə həsr olunmuş "Ulu Öndər Heydər Əliyev və Azərbaycan jurnalistikası" mövzusunda dəyirmi masa da bu tədbirlər çərçivəsində keçirilir.

Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov, "Şərq qapısı" qəzetinin məsul katibi Muxtar Məmmədov, Mətbuat Şurasının üzvü Şəhla Şirəliyeva, Televiziya və Radio Şurasının üzvü Sara Əzimova və başqaları ölkəmizdə 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsini dahi öndərə böyük diqqət və ehtiramın ifadəsi kimi dəyərləndiriblər.

Vurğulanıb ki, Ulu Öndərin imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərman ölkə mətbuatının inkişaf tarixində mühüm hadisə kimi yadda qalıb. Məhz bu Fərmanla mətbuatda və digər KİV-lərdə Dövlət Sirlərini Mühafizə edən Baş İdarə ləğv edilib. Bu, mətbuat sahəsində tarixi hadisə idi. Ulu Öndər mətbuata və mətbuat işçilərinə hər zaman öz diqqətini göstərib, "Jurnalistlərin dostu" adına layiq görülüb.

Tədbir maraqlı diskussiya şəraitində davam etdirilib.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Dövlət Universitetinin "NSUTECH" komandası *"Robotex Türkiyə 2023"* festivalında I yerə layiq görülüb



*Dünyanın ən böyük robototexnika festivalı və Estoniyanın Türkiyədə keçirilən iki möhtəşəm tədbiri olan Robotex turnirləri bu il Türkiyənin Antalya şəhərində keçirilib.*

Azərbaycanı Naxçıvan Dövlət Universitetindən göndərilən və tərkibində Memarlıq və mühəndislik fakültəsi Meliorasiya və Ekologiya kafedrasının müəllimi Hüseyn İmanov, Ekologiya mühəndisliyi ixtisası üzrə II kurs tələbəsi Abdulla Kərimli, Marketinq ixtisası üzrə III kurs tələbəsi Elsun Cəfərli, Əczaçılıq ixtisası üzrə III kurs tələbəsi İslam İsmayılov və Tibb ixtisası üzrə II kurs tələbəsi Əli Ələkbərlinin olduğu 5 nəfərdən ibarət "NSUTECH" komandası təmsil edib və "Sahibkarlıq mübarizəsi-Universitet" kateqoriyası üzrə 1-ci yeri tutaraq "Sağlamlıq elmləri və texnologiyaları" və "Proqram texnologiyası" mükafatına layiq görülüb.

Qeyd edək ki, dünyanın ən böyük robototexnika festivalında 35 min iştirakçı hazırladıqları 1750 robotla müxtəlif yarışlar üçün robotlar yaratmaq və qabaqcıl yenilikləri öyrənmək üçün bir araya gəlib.

"Robotex Türkiyə 2023" sezonunda, bir neçə ölkənin, o cümlədən Azərbaycan,Türkiyə, Estoniya, İran və digər ölkələrin komandalarının iştirak etdiyi, 3 ayrı bölgədə bütün kateqoriyalar üzrə zorluq, texniki səviyyə, yaşdan asılı olmayaraq, hamının iştirakına açıq olan və "Başlanğıc", "Orta səviyyə", "Qabaqcıl", "Qızlar kateqoriyası", "Sahibkarlıq mübarizəsi", "Dron", "Su yarışı" kateqoriyalarına bölünən turnirlərdə uğur qazanan komandalar Türkiyə Çempionatına dəvət alıb.

Naxçıvan Dövlət Universitetinin göndərdiyi komanda mühəndislər, menecerlər və onların ailələri sənaye liderlərindən ilham almaq, yeni sahibkarları müşahidə etmək, müxtəlif yarışlar üçün robotlar yaratmaq və qabaqcıl yenilikləri öyrənmək üçün bir araya gələrək birinciliyi qazanıb və Estoniyada nəinki universitetimizi, hətta bütün Azərbaycanı təmsil etmək şansı əldə edib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***



# Heydər Əliyev İli

100

**Ulu Öndər Heydər ƏLİYEV:** *Milli özünüdərkin bərqərar olmasında, vətənpərvərlik hisslərinin aşılanmasında, milli və ümumbəşəri dəyərlərin təbliğində müstəsna rol oynamış Azərbaycan mətbuatı xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsinə öz böyük töhfəsini vermişdir.*

## Ümummilli Lider Heydər Əliyev müasir demokratik milli mətbuatın inkişaf modelinin müəllifidir

*Tarixdə elə dahi şəxsiyyətlər mövcud olur ki, məhz onların formalaşdırdığı millilik fəlsəfəsi və ideologiyası həmin xalqın gələcək qurtuluş və inkişaf yolunu müəyyənləşdirir. Xalqımızın Ümummilli Lideri Heydər Əliyev də qeyri-adi vətənpərvərliyi, millətsevərliyi, xalqının xilaskarlığ rəmzinə çevrilməsi ilə əbədiyaşarlıq zirvəsinə ucalan belə dahi şəxsiyyətlərdəndir. O, milli-mənəvi irsimizin, milli təfəkkür və intibah tariximizin mükəmməl bilicisi və yaşadıcısı kimi mətbuat tarixi, görkəmli jurnalistlərin fəaliyyəti barədə də zəngin təsəvvürə malik idi.*

### Mətbuat Ulu Öndərimiz üçün sovet diktaturasından müstəqilliyə, demokratiyaya gedən yolun etibarlı yolyoldaşı olub

Ulu Öndər hələ dövlət təhlükəsizlik orqanlarında çalışdığı illərdə, xüsusən də Azərbaycan KP MK-nın birinci katibi olarkən mətbuatla sıx təması öz iş prinsipinin başlıca istiqamətlərindən birinə çevirmişdi. Bu, ondan irəli gəlirdi ki, dahi şəxsiyyət hər zaman çox güclü təbliğat və təşviqat maşını olan mətbuatın insanları səfərbər etmək, onları təşkilatlandırmaq imkanlarını çox gözəl bilirdi. Ona görə də hələ totalitar sovet rejimi dövründə, sovet senzurasının tüğyan etdiyi bir zamanda mətbuatın cəmiyyətdə demokratik düşüncə, sərbəst fikir və mühakimə formalaşdırmaqdakı roluna böyük əhəmiyyət vermişdir. 70-80-ci illərdə cəmiyyəti düşündürən, narahat edən bütün problemlər məhz Onun şəxsi təşəbbüsü ilə bu və ya digər formada mətbuata çıxarılırdı. Bu barədə kifayət qədər faktlar olduğu üçün müəyyən konturlara diqqət yönəltməyi məqsədəuyğun hesab etdik.

Görkəmli dövlət xadiminin "Literaturnaya qazeta"nın 18 noyabr 1981-ci il tarixli nömrəsində dərc olunan "Qoy ədalət zəfər çalsın!" müsahibəsi sovet quruluşundan irəli gələn cəmiyyətdəki eybəcərlikləri – rüşvətxorluq, vəzifədən sui-istifadə, dövlət əmlakını mənimsəmə kimi mənfi hallara qarşı kəskin mübarizə mövqeyindən çıxış etmişdi. Həmin dövrlərdə belə bir görünməmiş addım bütün SSRİ-yə səs salmışdı. Dahi şəxsiyyət Heydər Əliyev sübut etmişdi ki, "ideal" sovet quruluşu, əslində, başdan-başa eybəcərliklər və nöqsanlardan ibarətdir. Bu dahi insan böyük cəsarətlə bəyan etmişdi ki, "ədalətli", "humanist" sovet idarətmə sistemi adı altında illərdir, yığılıb qalan, gizlədilən problemlərin yeganə həlli yolu onları üzə çıxarmaq və açıq-aşkar mübarizə aparmaqdır. Bu müsahibə, əslində, SSRİ məkanında ilk dəfə olaraq cinayətkarlığa və korrupsiyaya qarşı açıq meydan oxumaq idi. İdeoloji dayaqlarını özünü dünyadan təcrid etməklə qoruyub saxlayan, məhvərini beynəlxalq mühitə qapalılıqla "sarsılmaz" edən bir ölkədə, özü də kifayət qədər böyük nüfuza malik siyasi rəhbər tərəfindən cəmiyyətdə kök salmış neqativ halların açıq şəkildə təhlil və tənqid olunması o dövr üçün sovet cəmiyyətində qaranlıqlara işıq salan, qulaqlarda gurlayan şimşək effekti vermişdir. Bu müsahibə ilə Sov. İKP Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev ötən əsrin 80-ci illərinin sonlarına yaxın "aşkarlıq", "yenidənqurma" tezislərinin ortaya atılmasından, keçmiş sovet imperiyasının süquta uğramasından çox-çox əvvəl böyük siyasi uzaqgörənliklə bu prosesləri qabaqlayaraq gələcək müstəqil Azərbaycanın demokratik cəmiyyət quruculuğunun ilk kodekslərini təqdim etmişdir.

Bəzi məsləksiz kütləvi informasiya vasitələrinin də "müstəsna xidmətləri" nəticəsində təhdid, iftira və böhtanlara məruz qalmaq yolu ilə tutduğu vəzifədən uzaqlaşdırılan, doğma yurdu Naxçıvana yenicə qayıtmış iki dəfə Sosialist Əməyi Qəhrəmanı, Azərbaycan KP MK-nın keçmiş birinci katibi, Sov. İKP MK Siyasi Bürosunun keçmiş üzvü, SSRİ Nazirlər Soveti sədrinin keçmiş birinci müavini, dahi şəxsiyyət Heydər Əliyevin "Şərq qapısı" qəzetinin 26 iyul 1990-cı il tarixli nömrəsində dərc olunan "Daha susa bilməzdim" adlı müsahibəsi Ulu Öndərin Vətənə qayıtdıqdan sonra Azərbaycan mətbuatında dərc olunmuş ilk müsahibə kimi, xüsusilə diqqəti cəlb edir. Görkəmli dövlət xadimi müsahibədə bir sıra qüvvələrin, xüsusilə də bəzi kütləvi informasiya vasitələrinin ona qarşı ədalətsizliyi, partiya orqanlarının müvafiq dairələrinin əli ilə qarayaxma kampaniyası aparılması haqqında, Azərbaycan Respublikasının Moskvadakı daimi nümayəndəliyinə gələrək 20 Yanvar faciəsinə kəskin etirazını bildirdikdən sonra bu təzyiqlərin daha da artması ilə bağlı cəsarətlə məlumat verir. Ulu Öndərin böyük cəsarət və qətiyyətlə, siyasi uzaqgörənliklə səsləndirdiyi ***"...indi hər bir adama, hər bir xalqa, hər bir siyasi təşkilata və siyasi qüvvəyə öz taleyini müstəqil müəyyən etmək imkanı verilməlidir"*** fikrinin sovet ideologiyasının, sovet senzurasının hələ "ölmədiyi" bir vaxtda qəzetdə dərc olunması mətbuat orqanı üçün də böyük qətiyyət və cəsarət idi. Müsahibə görkəmli siyasi xadimin son altı il ərzində ölkədə gedən yenidənqurma proseslərini dərindən təhlil etməsi, ölkədə yaranan siyasi vəziyyəti öz fikrini söyləmək, respublikaların öz suverenliyi və müstəqilliyi uğrunda mübarizə aparmaq imkanı kimi dəyərləndirməsi, ***"Mən Azərbaycanın iqtisadi və siyasi suverenliyinin, tam müstəqilliyinin tərəfdarıyam"*** kimi cəsarətli çağırışı, deputatlığa namizəd kimi səsləndirdiyi ***"Siyasi və iqtisadi cəhətdən suveren, müstəqil Azərbaycan uğrunda mübarizə aparmaq"*** platformasını bəyan etməsi ilə müasir siyasi tariximizdə müstəsna yer tutur. Dahi Nizaminin "Qoy ədalət zəfər çalsın!" misrası əsrlər sonra daha böyük siyasi məna əxz etmiş, "Daha susa bilməzdim" ifadəsi ilə birgə aforizmə, milli demokratiya şüarına çevrilmişdir.

### Müstəqil Azərbaycanda fundamental qanunvericilik bazasına əsaslanan demokratik mətbuat formalaşdırılır

Ümummilli Lider respublikada hakimiyyətinin hər iki dövründə mətbuata həmişə böyük yaradıcılıq sərbəstliyi, demokratik meydan yaratmış, özünün də dəfələrlə qeyd etdiyi kimi, müstəqil, demokratik mətbuatın inkişafına xüsusi əhəmiyyət vermişdir: ***"Ölkəmizdə siyasi plüralizmin tələblərinə dönmədən əməl edilir. Söz, fikir və əqidə azadlığının təmin olunması, kütləvi informasiya vasitələrinin hərtərəfli inkişafı, onların sərbəst fəaliyyəti üçün zəruri şə-***




***raitin yaradılması Azərbaycanın dövlət rəhbəri kimi mənim qarşımda duran mühüm vəzifələrdəndir".***

Ulu Öndərimiz 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdışından sonra ölkəmizdə hüquq islahatlarının ayrılmaz hissəsi kimi kütləvi informasiya vasitələrinin daha da müstəqilləşməsi, demokratikləşməsi istiqamətində davamlı siyasət həyata keçirilməyə başlandı. Mətbuat orqanlarının azad fəaliyyəti və inkişafı yolunda süni manelərin aradan qaldırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, qəzetlərin maddi-texniki təchizatının yaxşılaşdırılması sahəsində də ardıcıl işlər görüldü. Mətbuatın müstəqilliyinə və fikir plüralizminə xidmət edən möhkəm qanunçuluq bazası yaradılması mətbuatın inkişafında da ciddi dönüşə səbəb oldu.

Azərbaycan Respublikası Konstitusiyasının 50-ci, 51-ci, 60-cı maddələrində ölkə vətəndaşlarının söz, məlumat toplamaq, öz rəyini sərbəst ifadə etmək, yaradıcılıq azadlıqları təsbit olundu. Digər qanunvericilik aktlarında da öz əksini tapmış bu azadlıqlar ölkə vətəndaşlarının qanuni üsullarla informasiya axtarmaq, əldə etmək, hazırlamaq, ötürmək, istehsal etmək və yaymaq hüququna dövlət tərəfindən təminat verdi.

Azərbaycan Respublikasının Prezidenti Ulu Öndər Heydər Əliyevin "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında"1998-ci il 6 avqust tarixli Fərmanı ilə 27 oktyabr 1996-cı ildə Nazirlər Soveti yanında yaranmış Mətbuatda və Digər Kütləvi İnformasiya Vasitələrində Dövlət Sirlərini Mühafizə edən Baş İdarə ləğv edildi. Fərmanda, bütövlükdə, müstəqil Azərbaycanın media siyasətinin əsas konsepsiyası öz əksini tapmışdır: *"Bizim dövlət siyasətimizin əsas məqsədlərindən biri Azərbaycanın mütərəqqi mətbuat ənənələrinin davam etdirilməsi və müasir beynəlxalq təcrübə ilə zənginləşdirilməsi, kütləvi informasiya vasitələrinin maddi-texniki vəziyyətinin yaxşılaşdırılması, onların imkanlarından respublikada hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin formalaşdırılması və inkişafı, demokratik islahatların həyata keçirilməsində səmərəli istifadə edilməsindən ibarətdir".*

Dahi şəxsiyyətin demokratik dövlət quruculuğunun mühüm amili kimi ölkəmizdə senzuranın rəsmən ləğv edilməsi ilə bağlı imzaladığı bu Fərman cəsarətli, prinsipial addım idi. Böyük uzaqgörənliklə qəbul edilmiş bu qərar kütləvi informasiya vasitələrinin sürətli inkişafına ciddi təkan verdi. Mətbuat cəmiyyətin dinamik şəkildə demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevrilməyə başladı. Mətbuat və İnformasiya Nazirliyinin ləğvi kütləvi informasiya vasitələrinin təsis olunmasını və onlardan istifadə qaydalarını asanlaşdırdı.

Azərbaycan Avropa Şurasına üzvlüyə qəbul edildikdən sonra ölkədə aparılan demokratik islahatlar söz və mətbuat azadlığının daha geniş bərqərar olmasına imkan yaratdı. Dahi rəhbərin 1999-cu il 7 dekabr tarixdə "Kütləvi İnformasiya Vasitələri haqqında" Qanun imzalaması bu prosesi daha da sürətləndirdi. Qanunda deyilir: *"Azərbaycan Respublikasında kütləvi informasiya azaddır. Kütləvi informasiya azadlığı vətəndaşların qanuni yolla informasiya axtarmaq, əldə etmək, hazırlamaq, ötürmək, istehsal etmək və yaymaq hüququna dövlət tərəfindən təminat verilməsinə əsaslanır". "Kütləvi informasiya vasitələrinin təsis olunması, onlara sahiblik, onlardan istifadə, onların idarə olunması, kütləvi informasiyanın axtarılması, əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımı Azərbaycan Respublikasının kütləvi informasiya vasitələri haqqında qanunvericiliyində nəzərdə tutulan hallardan başqa məhdudlaşdırıla bilməz".* Bu qanuna əsasən Azərbaycanda mətbuatın dövlət qeydiyyatı ləğv edildi və yeni mətbuat orqanlarının təsis olunması proseduru xeyli asanlaşdırıldı. Eyni zamanda bu qanuna əsasən kütləvi informasiya vasitələrinin təsis olunmasının, onların idarə edilməsinin qanunvericilikdə nəzərdə tutulan hallardan savayı məhdudlaşdırılması aradan qaldırıldı.

Görkəmli dövlət xadimi Azərbaycan Teleqraf Agentliyinə dövlət statusunun verilməsi, onun maddi-texniki bazasının möhkəmlənməsi ilə, agentliyin xarici ölkələrdə müxbir məntəqələrinin açılmasına nail oldu, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq informasiya mübadiləsi və dünya media sisteminə inteqrasiya yolu ilə milli demokratik jurnalistikanın inkişafına təkan verdi.

### Jurnalistlərin ən yaxın və sədaqətli dostu

Jurnalistlərlə sıx təmasda olan, kütləvi informasiya vasitələrinin mövcud problemləri ilə yaxından maraqlanan Ümummilli Liderimizin adı mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsinə, iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına xüsusi qayğı göstərməsi ilə də böyük siyasi xadim kimi tarixə həkk olunmuşdur. 18 dekabr 2001-ci il tarixdə aparıcı KİV rəhbərləri ilə görüşən Ümummilli Liderimiz jurnalistikanın üzləşdiyi bir sıra çətinliklərin aradan qaldırılması üçün kütləvi informasiya vasitələrinə dövlət qayğısının artırılması haqqında fərman və sərəncamlar imzaladı. 2000-ci ilin martında "2000-2001-ci illərdə Kütləvi İnformasiya Vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə Tədbirlər Proqramı"nın təsdiq edilməsi ilə mətbuatın daha da inkişaf etdirilməsi üçün əlverişli şərait yaradıldı. Həmin proqramda jurnalist kadrları hazırlayan təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, kütləvi informasiya vasitələrinin istehsal və yayımla bağlı problemlərinin həll olunmasından ötrü ələqələndirmə şurasının yaradılması və başqa mühüm məsələlərin həlli irəli sürülürdü.

2001-ci ildə Azərbaycan jurnalistlərinin I Qurultayının keçirilməsi və Cənubi Qafqazda ilk dəfə Azərbaycanda Mətbuat Şurası adlanan özünütənzimləmə təsisatı yaradılması da milli mətbuat tarixindəki mühüm hadisələrdəndir.

2001-ci il mayın 11-də Ulu Öndərin "Kütləvi İnformasiya Vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" imzaladığı Fərman müstəqil mətbuatın inkişafında əhəmiyyətli rol oynayan tarixi sənəddir.

Görkəmli dövlət xadiminin bir sıra KİV-lərə dövlət tərəfindən güzəştli kreditlər verilməsi, qəzetlərin əlavə dəyər vergisindən azad edilməsi, onların maddi-texniki bazasının daha da gücləndirilməsi, ölkəyə gətirilən qəzet kağızı üçün dövlət rüsumunun ləğvi, qəzetlərin "Azərbaycan" nəşriyyatına olan borclarının 2005-ci ilədək dondurulması ilə bağlı qəbul etdiyi qərarlar mətbuatla bağlı müasir tələblərə cavab verən qanunvericilik aktlarıdır.

Təsadüfi deyildir ki, 2002-ci ilin martında ABŞ Dövlət Departamentinin yeni müstəqil respublikalarda demokratiyanın vəziyyətini əks etdirən illik hesabatında dahi siyasətçi Heydər Əliyevin Azərbaycanda insan və hüquq azadlıqlarının, o cümlədən söz və mətbuat azadlığının da təmin olunması ilə bağlı fəaliyyəti yüksək dəyərləndirilir.

Azərbaycan milli mətbuatının daha da inkişaf etdirilməsi sahəsindəki bütün bu xidmətlərinə görə dahi şəxsiyyət Heydər Əliyev 2002-ci ilin martın 22-də "Ruh" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsinin təsis etdiyi "Jurnalistlərin dostu" mükafatına layiq görülür. Müdrik dövlət rəhbəri Heydər Əliyev fəaliyyəti boyu ölkə mətbuatını təmsil edən jurnalist kollektivləri ilə görüşlərində mətbuatın problemlərini, mövcud nöqsanlarını da göstərir, dəyərli tövsiyələr verirdi. Belə ki, Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi münasibəti ilə 21 iyul 2000-ci ildə milli jurnalistikamızın tanınmış nümayəndələrinin peşə bayramını təbrik edən Ulu Öndərimiz 2001-ci il dekabrın 18-də Prezident sarayında ölkəmizdə fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşmüş, 2002-ci il iyulun 25-də Prezident sarayında Bakı Mətbuat Klubunun təsisçilərini qəbul etmişdir.

Jurnalist əməyinə qeyri-adi əmək kimi qiymət verən dahi rəhbər kütləvi informasiya vasitələrinin, ayrı-ayrı jurnalistlərin dövlət quruculuğundakı, xalqın maarifləndirilməsindəki, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasındakı xidmətlərini yüksək dəyərləndirmişdir.

Peşəkar milli jurnalistikanın inkişafı ölkədə söz və mətbuat azadlığının qarantı olan Ümummilli Liderin adı ilə bağlıdır. Böyük siyasi xadim xarici səfərlər zamanı brifinqlər, mətbuat konfransları keçirərək respublikanın ictimai-siyasi, sosial-iqtisadi həyatında baş verən hadisələrlə bağlı xalqa operativ və obyektiv informasiya çatdırılmasını təmin edirdi. Görkəmli dövlət xadimi, dahi şəxsiyyət Heydər Əliyev ölkə başçısı kimi dövlət məmurlarından da jurnalist hüquqlarına hörmət etməyi, onları informasiya ilə təmin etməyi təkidlə tələb edirdi.

### Siyasi varislik prinsipi media siyasəti sahəsində də qətiyyətlə həyata keçirilir

Qeyd etmək yerinə düşər ki, Azərbaycançılıq fəlsəfəsinə söykənən və yüzilliklərə hesablanmış Heydər Əliyev siyasi irsinə varisliyi şərəf və ləyaqətlə üzərinə götürən Prezident cənab İlham Əliyev Ulu Öndərimizin ölkədə azad mətbuatın

Ardı 6-cı səhifədə

inkişafı sahəsində müəyyən etdiyi siyasəti də uğurla davam etdirir. Mətbuatımızın qabaqcıl və mütərəqqi ənənələrə əsaslanmaqla, xalqımızın tarixi-milli xüsusiyyətlərini qorumaqla inkişaf etməsini vacib sayan Prezident cənab İlham Əliyev söz və mətbuat azadlığını demokratiyanın əsası hesab edir: ***"Azərbaycanda aparılan siyasi islahatların əsas mənası, məqsədi ondan ibarətdir ki, ölkəmiz hərtərəfli inkişaf etsin, ölkədə yaşayan hər bir vətəndaş bütün azadlıqlardan istifadə etsin. Azərbaycanda, o cümlədən mətbuat azadlığı da mövcuddur. Biz bu məsələdə çox ciddi addımlar atırıq. Söz azadlığının, mətbuat azadlığının təmin olunması bizim prioritet məsələmizdir və deyə bilərəm ki, Azərbaycan bu sahədə böyük uğurlara nail olmuşdur".*** Dövlətimizin başçısının 2005-ci il 20 iyun tarixli Sərəncamına əsasən Azərbaycan milli mətbuatının 130 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması, ilk dəfə olaraq mətbuat işçilərinin çoxsaylı mükafat, orden və medallarla təltif olunması, "Əməkdar jurnalist" fəxri adının bərpa edilməsi ölkə başçımızın jurnalistlərə doğma münasibətinin və verdiyi dəyərin təzahürüdür. "Kütləvi informasiya vasitələrinə maliyyə yardımının göstərilməsi haqqında" 2005-ci il 21 iyul tarixli Sərəncama əsasən Mətbuat Şurasının maddi-texniki bazasının möhkəmləndirilməsi, 30-dan çox müxtəlif mətbuat orqanı və informasiya agentliklərinin hər birinə 10 milyon manat maliyyə dəstəyi göstərilməsi, qəzetlərin nəşriyyatlara olan borclarının dövlət büdcəsi hesabına ödənilməsi ilə mətbuat orqanlarının maddi-texniki bazasının gücləndirilməsi, jurnalist əməyinin qiymətləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin miqyası daha da genişləndirildi. Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2006-cı il fevralın 8-də imzaladığı Sərəncama əsasən redaksiyaların "Azərbaycan" nəşriyyatına olan 400 min manat məbləğində borcu dövlət büdcəsindən ödənildi, ayrı-ayrı mətbu orqanlara dövlət tərəfindən yardım ayrıldı. 2008-ci il 31 iyul tarixli Sərəncam ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" KİV-nin müstəqilliyinin təmin edilməsi məqsədilə kompleks tədbirlər nəzərdə tutan mühüm sənəd kimi milli jurnalistikanın sonrakı inkişafına əhəmiyyətli təsir göstərdi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2015-ci il 2 iyun tarixli Sərəncamına əsasən milli mətbuatın 140 illik yubileyinin yüksək səviyyədə qeyd edilməsi müstəqil Azərbaycanda azad sözə, mətbuatın inkişafına göstərilən qayğının daha bir ifadəsidir. "Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyun tarixli Sərəncamı isə mətbuata böyük dəyər olmaqla milli jurnalistikamızın gələcək fəaliyyət istiqamətlərini, ana məramını da müəyyənləşdirmişdir: *"Ölkəmizdə müstəqil, güclü, fəaliyyətini günümüzün tələbləri səviyyəsində qurmağı bacaran, habelə dövlətçilik ənənələrinə bağlı və xalqımızın milli maraqlarını rəhbər tutan medianın inkişafı prioritet vəzifələrdən biri kimi daim diqqət mərkəzində saxlanılır. Bununla belə kütləvi informasiya vasitələri də ölkəmizdə həyata keçirilən köklü islahatlardan kənarda qalmamalı, kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyi hazırkı dövrdə qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğunlaşmalı, cəmiyyətimizin obyektiv və peşəkar şəkildə məlumatlandırılması sahəsində öz səylərini daha da gücləndirməlidir. Modernləşmə, rasionallıq, obyektivlik, kreativlik, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi medianın inkişafını şərtləndirən başlıca amillər olmalıdır".*

Ölkədə aparılan düzgün media siyasətinin nəticəsidir ki, yeni dövrün milli mətbuatımızın inkişafı ilə bağlı qanunvericilik bazasının təkmilləşdirilməsini zərurətə çevirməsi daim nəzərə alınır, media məkanında sürətli qloballaşma prosesi gedir. Bu baxımdan mövcud qanunvericiliyin təkmilləşdirilməsinin zamanın tələbi olduğunu nəzərə alan Prezident cənab İlham Əliyevin tapşırığı ilə media haqqında qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində məqsədyönlü iş aparılır. Dövlətimizin başçısının 2021-ci il 12 yanvar tarixli "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı ilə Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında ölkəmizdə media sahəsində islahatların daha sürətlə aparılması məqsədilə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs yaradıldı.

2021-ci il 30 dekabr tarixində Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanan "Media haqqında Azərbaycan Respublikasının Qanunu" media fəaliyyətini tənzimləmək və standartlaşdırmaq və media orqanlarının etik standartlara uyğun fəaliyyət göstərməsini təmin etmək, milli jurnalistika sahəsində mövcud ənənələrin qorunması və inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyətə malik dövlət sənədidir. Qanunun məqsədi ölkəmizin informasiya məkanının təhlükəsizliyinin təmin edilməsi, yerli medianın inkişafına təkan verilməsi, informasiya mühitinin sağlamlaşdırılması və rəqabət qabiliyyətinin artırılması, habelə jurnalistika peşəsinin nüfuzunun yüksəldilməsinə şərait yaradılması demokratik informasiya mühitinin inkişafını daha da sürətləndirəcək.

Prezident cənab İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu"na əsasən media subyektlərinin (audiovizual media subyektləri istisna olmaqla) öz fəaliyyətlərindən əldə etdikləri gəlirlərin, reklam gəlirlərinin, habelə onlara verilən müvafiq maddi yardımların gəlir, mənfəət və sadələşdirilmiş vergilərdən, onlar tərəfindən istehsal olunan media məhsullarının təqdim edilməsi isə əlavə dəyər vergisindən 3 il müddətinə azad olunub. Bu, medianın maddi-texniki bazasının gücləndirilməsi, maliyyə müstəqilliyinin yaranması baxımından mühüm addımdır. Media subyektlərinin vergilərdən azad edilməsi media orqanlarının maliyyə problemlərinin aradan qaldırılması, onların yeni qlobal çağırışlara uyğunlaşmaq, daha peşəkar fəaliyyət göstərmələri, dünya standartları səviyyəsində informasiya təminatçısına çevrilməsi məqsədi daşıyır.

Ölkəmizdə mətbuata dövlət qayğısının mühüm nümunələrindən biri də Mətbuat Şurasının yeni bina ilə təmin edilməsi oldu. Prezident cənab İlham Əliyevin 22 iyul 2010-cu il tarixdə – milli mətbuatımızın 135 illiyində Mətbuat Şurasının yeni binasının açılış mərasimində iştirak etməsi isə bu qurumun fəaliyyətinə dövlətin verdiyi önəmin təzahürü idi. Azərbaycan mətbuatı üçün digər böyük hadisə jurnalistlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə yaşayış evlərinin tikintisidir. Dövlət başçımızın 2010-cu il iyulun 22-də imzaladığı "Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri haqqında" Sərəncamına əsasən mətbuat işçiləri üçün yaşayış evlərinin tikilməsi məqsədilə 2010-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 5 milyon manat vəsait ayrılmış, həmin vəsait hesabına jurnalistlər üçün 156 mənzildən ibarət 17 mərtəbəli bina inşa olunaraq istifadəyə verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında" 2013-cü il 22 iyul tarixli Sərəncamı ilə jurnalistlər üçün tikilən növbəti – 3 bloklu, 17 mərtəbəli binada media sahəsində çalışanlara 255 mənzil hədiyyə edilmişdir. Həmin binanın tikintisi üçün 22 milyon manatdan artıq vəsait sərf olunmuşdur. Ölkə başçımız 20 iyul 2017-ci il tarixdə həmin binada Milli Mətbuat Günü münasibətilə mənzillərin paylanması mərasimində şəxsən iştirak və çıxış etmişdir. Media reyestrinin yaradılması, jurnalistlərə vahid vəsiqələrin verilməsi, güzəştli ipoteka şərtlərindən media nümayəndələrinin yararlanmasının təmin olunması və digər üstünlüklər jurnalistlərə göstərilən diqqət və qayğının əməli təzahürüdür. Prezident cənab İlham Əliyevin jurnalistlərlə daim səmimi ünsiyyət qurması, onlarla dost münasibəti, ictimai-siyasi proseslərin gedişini, daxili və xarici siyasətin prioritetlərini daim onlarla birgə sivil şəkildə müzakirəyə çıxarması, mətbuata xüsusi diqqət və qayğı göstərməsi nəticəsində, ölkə başçımız 2010 və 2017-ci illərdə "Jurnalistlərin dostu" seçilmişdir.

*Bütün bunlar bir daha təsdiq edir ki, əsl Azərbaycançənas olan Ümummilli Liderimiz Heydər Əliyev milli jurnalistikamızın inkişafına misilsiz töhfələr vermişdir. Azərbaycanda mətbuatın, o cümlədən söz azadlığı və plüralizmin yüksək səviyyədə olması ilə bağlı aparılan media siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən də ardıcıl və yaradıcı şəkildə davam etdirilir. Dövlət başçımızın özünün də dediyi kimi:* ***"...Azərbaycanda demokratik islahatlar davam etdirilib, güclü vətəndaş cəmiyyəti formalaşıb. Bu gün Azərbaycan ifadə, söz, mətbuat azadlığı tam təmin olunmuş bir ölkədir. Bizim həyata keçirdiyimiz siyasətin əsasında insan amili, vətəndaşlarımızın rifahı məsələsi dayanır. Bütün addımlarımız, gördüyümüz işlər Azərbaycan xalqının maraqlarına xidmət edir. Təbii ki, xalqımızın etimadı, dəstəyi olmasaydı, biz bu nəhəng planları həyata keçirə bilməzdik".***

**Mehriban SULTAN**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Vətəndaş qəbulu olub

Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini Xəyalə Dadaşova muxtar respublikanın rayonlarından olan vətəndaşları qəbul edib.



Qəbula gələn vətəndaşların müraciəti, əsasən, yaz əkinlərinə subsidiyaların ödənişi, əlavə gübrələrə olan tələbatın təmin edilməsi, örüş-otlaq sahələrinin bölgüsü və suvarma suyuna olan tələbatın ödənilməsi, o cümlədən işlə təmin olunma və digər məsələlərlə bağlı olub.

Qəbulda məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verilib. Vətəndaşların müraciətlərinin bir qismi görüş zamanı həllini tapıb. Suvarma suyu ilə bağlı məsələlərin yerində həll edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin məsul şəxsi tədbirə dəvət olunub. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər köməklik göstərilməsi üçün aidiyyəti üzrə yönləndirilib.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Dövlət Universiteti ilə ABİS Texnologiya şirkəti arasında beynəlxalq əməkdaşlıq müqaviləsi imzalanıb

Azərbaycan ali təhsil məkanında ilk dəfə Naxçıvan Dövlət Universiteti ilə ABİS Texnologiya şirkəti arasında beynəlxalq əməkdaşlıq müqaviləsi imzalanıb. Universitetin rektoru, dosent Elbrus İsayev ikitərəfli görüşdə ABİS Texnologiya şirkətinin rəhbəri, Türkiyənin Orta Doğu Texniki Universitetinin professoru Adəm Kalınlını salamlayıb, bugünkü görüşün universitetin professor-müəllim heyəti üçün əhəmiyyətli olduğunu vurğulayıb.

Professor Adəm Kalınlı qeyd edib ki, Türkiyə və Azərbaycan arasında elm sahəsində birgə əməkdaşlıq Naxçıvan Dövlət Universitetindən başlamaqla bütün Azərbaycan ali təhsili müəssisələrini də əhatə edəcək. Vurğulanıb ki, bu gün əsası qoyulan birlik bütün Türk dünyası elm adamlarının birgə fəaliyyətinə şərait yaradacaq.

Sonra ABİS Texnologiya şirkəti ilə Naxçıvan Dövlət Universiteti arasında beynəlxalq əməkdaşlığa dair protokol imzalanıb. Ali təhsil müəssisələri üçün tədqiqatları və sistemləri ilə tanınan, Türkiyənin bir çox aparıcı universitetlərinə xidmət göstərən şirkət ilə ali təhsil müəssisəsi arasında əməkdaşlıq prinsiplərini əhatə edən protokolda elmi nəşrlərin





daim diqqətdə saxlanması, nüfuzlu elmi bazalarda məqalə nəşr edən alimlərin elmi platformaya birgə çıxışının təmin edilməsi, professor-müəllim heyətinin dünya elminə inteqrasiya olunacaq məqalələrinin vahid platformada birləşdirilməsi məsələləri qeyd olunub. Eyni zamanda protokolda beynəlxalq universitetlərin reytinq sistemləri, ali təhsildə tədqiqatların idarə edilməsi, davamlı inkişaf araşdırmaları, açıq arxiv və elmi tədqiqatları, təşkilatın fəaliyyətini artırmaq üçün strategiyalar və təcrübələr, sənaye 4.0 üçün universitet təhsili məsələləri də öz əksini tapıb.

Professor Adəm Kalınlının ali təhsil ocağında keçdiyi təlimlərdə iştirak edən bir qrup müəllimlərə sertifikat təqdim olunduqdan sonra rektor qonağa hədiyyə təqdim edilib.

Qeyd edək ki, protokol çərçivəsində Türkiyənin Orta Doğu Texniki Universitetinin professoru Adəm Kalınlı Naxçıvan Dövlət Universitetinin müəllimləri üçün təlim keçib. 3 gün ərzində təşkil olunan təlim "Ali təhsil sistemində datalara əsaslanan idarəçilik strategiyası", "Naxçıvan Dövlət Universitetində elmi fəaliyyət planının istiqamətləri", "Qlobal dəyişikliklər və 4.0 sənaye inqilabı üçün universitet təhsili" mövzularını əhatə edib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## *"Robot qol-Leqo Sumo 2023"* *və "Tullantıdan sənətə"* müsabiqələri keçirilib

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr edilmiş "Robot qol-Leqo Sumo 2023" və "Tullantıdan sənətə" müsabiqələri keçirilib.

Təhsil naziri Rəhman Məmmədov bu münasibətlə keçirilən tədbirdə çıxış edərək 2020-2021-ci tədris ilindən ümumtəhsil müəssisələrində STEAM təhsilinin tətbiqi istiqamətində görülən işlərdən danışıb.

Qeyd olunub ki, 2022-2023-cü tədris ilinin aprel ayınadək STEAM üzrə 14 müsabiqə, 15 interaktiv dərs keçirilib. Bu günədək 2000-ə yaxın şagird müsabiqələrə, 19000-ə yaxın şagird interaktiv dərsə qoşulub. Eyni zamanda Bakı şəhərində keçirilən Beynəlxalq STEAM



Azərbaycan Festivalında 8 şagird iştirak edərək I, II və III yerlərin qalibləri olub, onlar qızıl, bürünc medallar, sertifikatlar və qiymətli hədiyyələr qazanıblar. Bu günədək 20-yə yaxın şagird ölkə səviyyəli yarışlarda uğurlu nəticələr əldə edib.

Nazir bütün iştirakçıları təbrik edib, onlara uğurlar arzulayıb.

Təhsil Nazirliyi Aparatının sektor müdiri Murad Babayev bildirib ki, müsabiqədə ümumtəhsil və məktəbdənkənar təhsil müəssisələri olmaqla, ümumilikdə, STEAM üzrə "Robot qol"da 33 komanda olmaqla, 66 şagird, 33 layihə rəhbəri, "Leqo Sumo"da 13 komanda olmaqla, 26 şagird, 13 layihə rəhbəri və İnnovativ dərnəklər üzrə isə 138 layihə olmaqla, 156 dərnək üzvü iştirak edir.

Sonra məktəblilərin hazırladıqları "Tullantıdan sənətə" layihələri və "Robot qol-Leqo Sumo" yarışları ilə tanışlıq olub.

Şagirdlər "Leqo Sumo" və "Robot qol" mövzusunda "Lego mindstorms ev3" təhsil dəstlərindən və arduino kodlaşdırma kartından və digər elektron komponentlərdən istifadə edərək mövzu üzrə elan olunmuş missiyaları həll etmək üçün proqramlaşdırılmış robotlar yığıb və rəqəmsal həllərin köməyilə daha səmərəli resurslardan istifadə yolu ilə yaradıcı yanaşma nümayiş etdiriblər.

"Tullantıdan sənətə" mövzusunda isə şagirdlər məişət tullantılarından yararlanmaqla tullantıları sənətə çeviriblər.

Qaliblər Təhsil Nazirliyinin sertifikat və diplomları ilə mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## 2023-cü il “Heydər Əliyev İli”dir

*Ulu Öndərimiz Azərbaycan dövlətinin, xalqımızın tərəqqi və inkişaf yolunu böyük uzaqgörənliklə müəyyənləşdirmişdir. Xalqımız qarşısında müstəsna xidmətlərinə görə dahi şəxsiyyət hələ sağlığında hər bir azərbaycanlının qəlbində özünə əbədi abidə ucaltmış, Azərbaycan xalqının Ümummilli Lideri səviyyəsinə yüksəlmişdir. Ulu Öndər Heydər Əliyevin tərcümeyi-halına nəzər yetirsək, orada yalnız bir məqsəd, bir amal görmək mümkündür: Azərbaycan naminə çalışmaq, Azərbaycan xalqının xoşbəxtliyi naminə fəaliyyət göstərmək. Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 22 sentyabr tarixli sərəncamında deyilir: “Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir”.*

# Ümummilli Liderimizin yolu və ideyaları ilə Azərbaycan böyük zirvələr fəth edir



Dahi şəxsiyyət ötən əsrin 70-80-ci illərində sovet imperiyasının sərt rejiminə baxmayaraq, Azərbaycanın gələcək müstəqilliyi üçün misilsiz xidmətlər göstərmişdir. Bu parlaq şəxsiyyətin həmin illərdəki fəaliyyətinə nəzər saldıqda Vətənini hədsiz dərəcədə sevən bir insanın yurdunun tarixinə, mədəniyyətinə, ədəbiyyatına son dərəcə böyük sevgi və hörmətlə yanaşdığını görür və heyrətlənməyə bilmirsən. O bu böyük iş uğrunda bütün gücü, biliyi, bacarığı və təcrübəsi ilə çalışırdı.

Ulu Öndər Heydər Əliyevin sovetlər dönəmində Azərbaycanın bilavasitə uzaq perspektivinə, deməli, bu gününə yönəlmiş sırf milli xarakterli fəaliyyətini əyani surətdə sübuta yetirən yüzlərlə fakt göstərmək mümkündür. Dahi şəxsiyyətin fəaliyyəti, mahiyyət etibarilə, gələcəyə hesablanmış hərtərəfli inkişaf strategiyasının işlənib hazırlanması və həyata keçirilməsi idi. Azərbaycan qısa zaman kəsiyində ittifaq miqyasında iqtisadi-sosial baxımdan özünü təmin etməyə qadir olan respublikalar sırasına çıxmış, ölkəmizdə böyük abadlıq işləri görülmüş, respublikanın siyasi və mədəni həyatında mühüm əhəmiyyəti olan neçə-neçə obyektlər tikilib, istifadəyə verilmişdir.

Tarix sübut edir ki, yalnız xalqa bağlı olan, onun maraqlarını qoruya bilən, Vətən və millət sevgisi ilə yaşayan siyasətçilər böyük uğur qazanırlar. Siyasi fəaliyyətinin bütün dönəmlərində dahi şəxsiyyət Heydər Əliyev xalqa bağlı olduğunu, ümummilli maraqları hər zaman uca tutduğunu dəfələrlə sübut etmişdir. Böyük rəhbər Vətəni, milləti qarşısında ölkənin taleyüklü məqamlarında bütün məsuliyyəti öz üzərinə götürərək Azərbaycanı bir dövlət və millət kimi tarixin sınaqlarından çıxarmışdır. Bununla da xilaskarlıq missiyasını yerinə yetirmişdir: ***“Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi-siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqa arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib”.*** Müstəqil Azərbaycanın keçdiyi sınaqlar, dövlətçiliyimizin ən ağır günlərində dahi şəxsiyyət Heydər Əliyevin göstərdiyi qətiyyət bu sözlərdəki gerçəkliyi dəfələrlə təsdiqləmişdir. Ümummilli Lider Azərbaycan dövlətçiliyini, Azərbaycan xalqını fəlakətlərdən qurtarmış, dövlətçiliyi möhkəmləndirmiş, onu çevriliş, qiyam cəhdlərindən hifz edərək dirçəliş və inkişafa doğru yönəltmiş, cəmiyyətdə özünəinam hissini bərpa etmiş, sabitlik və firavanlığa şərait yaratmışdır. Çox çətinliklə əldə etdiyimiz müstəqilliyimizi dönməz və əbədi etmişdir.

Ümummilli Liderimiz Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıdışı ilə dövlətçiliyimizi məhv olmaqdan qorudu, onu dağılmaq təhlükəsindən xilas etdi və möhkəmləndirdi. Əgər 1993-cü il iyunun 15-də xalqın təkidli tələbi ilə tarixi şəxsiyyət, Ümummilli Lider Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı gerçəkləşməsəydi, indi biz müstəqil, qüdrətli, yeniləşən və demokratikləşən Azərbaycan dövlətindən danışa bilməzdik. Bu qayıdış Azərbaycanın müstəqilliyini reallığa çevirmişdir. Müstəqil Azərbaycan öz nicatını görkəmli siyasətçi Heydər Əliyevin hakimiyyətə ikinci dəfə qayıdışında tapdı. Keçdiyimiz zaman məsafəsi xalqın düzgün qərar qəbul etdiyini, saysız-hesabsız problemlər məngənəsində sıxılan ölkəmizin ən ağır və məsul dövründə onu qurtuluş yolu ilə aparmağa qadir olan yeganə şəxsiyyətin məhz dahi rəhbər Heydər Əliyev olduğunu bir daha sübut etdi. Ulu Öndərin Naxçıvandan Bakıya, böyük siyasətə qayıdışı şərəfli xilaskar missiyasına – Azərbaycanı Azərbaycana qaytarmaq məramına xidmət edirdi.

Dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycana ikinci rəhbərlik dövrü müstəqil dövlət quruculuğu prosesinin hərtərəfli şəkildə və böyük uğurla həyata keçirilməsi ilə səciyyələnir. ***“Azərbaycanın dövlət müstəqilliyi bizim üçün ən əziz, ən qiymətli nailiyyətdir və bu nailiyyəti – dövlət müstəqilliyimizi biz daima qoruyub saxlayacağıq”***, – deyən Ümummilli Liderimiz bu tarixi nailiyyətin, milli istiqlalımızın qorunub saxlanması və möhkəmləndirilməsi üçün misilsiz işlər görmüş, Vətəni və xalqı bəlalardan qorumuş, xilas etmişdir. Müdrik rəhbərin uzaqgörən siyasəti nəticəsində ölkədəki özbaşınalıq, anarxiya aradan qaldırılmış, qanunların aliliyinə, hüquqi-demokratik prinsiplərə əsaslanan idarəçilik sistemi yaradılmış, vətəndaş həmrəyliyi bərpa olunmuş, iqtisadi tərəqqiyə geniş rəvac verən qlobal layihələrin gerçəkləşdirilməsinə başlanılmışdır.

Azərbaycan artıq dünyada sayılıb-seçilən ölkələrdən biridir. Respublikamızda beynəlxalq toplantılar, konfranslar, Avropa səviyyəli musiqi, dünya səviyyəli idman tədbirləri keçirilir. Azərbaycan regionda ən qüdrətli və lider dövlət olmaqla yanaşı, iqtisadi və siyasi göstəricilərinə, ictimai-siyasi sabitliyinə görə inkişaf etmiş dünya dövlətləri ilə bir sırada durur. Bu əzəmətli tərəqqi yoluna nəzər salarkən Ümummilli Lider Heydər Əliyevin həmişəyaşarlığı bir daha aydın olur. Xalqımız görür ki, ölkəmizdə həyata keçirilən siyasi xətt – Heydər Əliyev yolu Azərbaycanı daha böyük zəfərlərə qovuşdurmaqdır. İndi ölkəmiz dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi altında bu yolla inamla irəliləyir, regionda və beynəlxalq aləmdə böyük iqtisadi və siyasi uğurlara imza atır. Bu qələbələr bizi zirvələrdən-zirvələrə ucaldacaq və Azərbaycan cəmiyyətinin firavanlığını daim təmin edəcəkdir. Bu gün hər birimiz sevinir və qürur hissi keçiririk ki, müstəqilliyin yolları ilə inamla irəliləyən Azərbaycanda Ulu Öndərin amal və əməlləri dönmədən həyata keçirilir. Ölkəmiz Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə yeni-yeni uğurlar qazanır, böyük addımlarla qarşıya qoyulmuş məqsədlərə doğru inamla irəliləyir.

Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı 2022-ci il 22 sentyabr tarixli Sərəncamında deyildiyi kimi: *“Xalqımızı vahid amal ətrafında birləşdirən Azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur”.*

*Bu gün fəxrlə deyirik ki, ölkəmizin, xalqımızın qazandığı bütün nailiyyətlər Ümummilli Liderimiz Heydər Əliyev siyasi xəttinin təntənəsidir və bu nailiyyətlər Ulu Öndərin ideyalarına söykənir. Heydər Əliyev yolu ilə, Heydər Əliyev ideyaları ilə Azərbaycan daim uğurlar qazanaraq böyük zirvələri fəth edir. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 1993-cü ilin möhtəşəm qayıdışından başlanan xilaskarlıq missiyası sabitlik, inkişaf, qanunçuluq və ədalət intizarında olan milyonlarla insanın çağırışının gerçəkləşməsidir. **“Mən Azərbaycanın müstəqilliyini Azərbaycan xalqı üçün böyük nailiyyət hesab etmişəm və bu müstəqilliyin əldə olunmasına xidmət etmişəm. Bundan sonra ömrümün qalan hissəsini də Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə, inkişaf etməsinə sərf edəcəyəm”.** Dahi şəxsiyyət Heydər Əliyev hakimiyyətə bu fikirlərlə qayıtmışdı və ömrünün sonunadək də buna sadiq qaldı. Ulu Öndərimiz Heydər Əliyev qədirbilən Azərbaycan xalqının qəlbində əbədi yaşayır və daim yaşayacaqdır.*

**Qızıltac ŞAHBAZOVA**
***Naxçıvan Müəllimlər İnstitutunun dosenti, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi***

*Muxtar respublikamızda hər sahədə olduğu kimi, təhsil sahəsində də Ulu Öndər Heydər Əliyev ideyaları yaşadılır. Bu gün onun siyasətinin uğurla davam etdirilməsinin nəticəsidir ki, təhsil sahəsində lazım olan bütün şərait yaradılıb. Muxtar diyarımızın bütün təhsil müəssisələrində müasir infrastrukturun qurulması yeni texnologiyaların tətbiqi, bunun əyani sübutudur. Görülən işlər təhsilin müasir inkişafına və savadlı kadrların hazırlanmasına imkan verib.*

# Ümummilli Liderin ideyalarını yaşadan təhsil ocağı





Ötən günlərdə Naxçıvan şəhərindəki yüksək təhsil sisteminə malik, hər tədris ilində uğurları, nailiyyətləri ilə seçilən və Ulu Öndərin adını daşıyan tam orta məktəbdə təhsil müəssisəsinin direktoru ***Elmira Həsənova*** ilə həmsöhbət olduq. O dedi ki, məktəbimiz üçün 2004-cü ildə müasir üslubda 4 mərtəbəli bina inşa olunub. Təhsil ocağı informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilib. Məktəbdə 60 sinif otağı, 5 elektron lövhəli sinif, kompüter otağı, kimya, biologiya və fizika laboratoriyaları, kitabxana, hərbi kabinə, 2 şahmat sinfi və idman zalı vardır. Təlimin yüksək səviyyədə təşkilini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən məktəbdə STEAM tədris mərkəzi yaradılıb və bütün zəruri avadanlıqlarla təmin olunub. Mərkəzdə innovativ texnologiyalardan istifadə və tətbiqetmə bacarıqlarının şagirdlərdə formalaşdırılmasına, onların irəli sürdüyü ideyaların reallaşmasına dəstək göstərilir.

Elmira müəllim bildirdi ki, ötən illər ərzində məktəb inkişaf istiqaməti olaraq muxtar respublikanın qabaqcıl ümumtəhsil məktəbləri arasında özünə layiqli yer tutub. 2021-2022-ci tədris ilində məktəb üzrə ali və orta ixtisas təhsili müəssisələrinə daxil olmaq üçün imtahan verən məzunlardan 56-sı ali, 2-si isə xüsusitəyinatlı ali məktəblərin tələbəsi adını qazanıb. Həmin məzunlarımızdan 8-i 500-700 intervalında bal toplayıb. Onlardan biri “Gümüş” nişanla məktəbi başa vurub, 3 nəfər fərqlənmə attestatına layiq görülüb. Məktəbimizin doqquzillik bazadan 3 nəfər məzunu Heydər Əliyev adına Hərbi Liseyə, 3 nəfəri isə orta ixtisas təhsili müəssisələrinə qəbul olub. İki şagird isə respublika fənn olimpiadalarında ikinci və üçüncü yerə layiq görülüb. 2021-2022-ci tədris ili ərzində məktəbin şagirdləri keçirilən fənn müsabiqələrində, məntiq və beynəlxalq riyaziyyat olimpiadalarında uğurla çıxış edib, Kenquri Beynəlxalq riyaziyyat müsabiqəsində 1 şagirdimiz 1-ci yerə, 2 şagirdimiz 2-ci yerə, 1 şagirdimiz 3-cü yerə, Beynəlxalq Amerika olimpiadasında 1 şagirdimiz 1-ci yerə, 4 şagirdimiz 3-cü yerə, Sasmo Beynəlxalq riyaziyyat olimpiadasında 6 şagirdimiz 3-cü yerə layiq görülüb, medallarla və sertifikatlarla təltif ediliblər. Bu tədris ilində Amo Beynəlxalq Riyaziyyat olimpiadasında 3 şagirdimiz qızıl, 1 şagirdimiz gümüş, 4 şagirdimiz bürünc medallara layiq görülüb. Eyni zamanda məktəbimizin şagirdləri “Sabahın tədqiqatçıları” layihəsində də fəallıq göstəriblər.

Məktəbin direktoru qeyd etdi ki, təhsil ocağında tədrisin səviyyəsini daha da yüksəltmək məqsədilə məktəbin nizamnaməsində dəyişikliklər tutulub. Bu yeniliklərdən biri yeni tədris ilindən məktəbin I sinfinə müsahibə yolu ilə şagird qəbuludur. Belə ki, 2022-2023-cü tədris ilində ilk dəfə məktəbin I sinfinə Təhsil Nazirliyi tərəfindən yaradılan qəbul komissiyasının müsahibə yolu ilə seçdiyi istedadlı və fərqlənən uşaqlar qəbul edilib.

Heydər Əliyev adına tam orta məktəbin “Tərəqqi” medalı ilə təltif olunmuş ibtidai sinif müəllimi ***Lətifə Zeynalova*** bu ilin ölkəmizdə “Heydər Əliyev İli” olması ilə bağlı öz təəssüratlarını bölüşərək dedi ki, Ümummilli Liderimiz tarix yaradan dahi şəxsiyyətlərdəndir. Görkəmli siyasi xadim Heydər Əliyev öz xalqını sevən, ölkəsini zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış, onun müstəqilliyini möhkəmləndirmiş qüdrətli şəxsiyyətdir.

Lətifə müəllim bildirdi ki, Ümummilli Liderin ideallarının yaşadıldığı Heydər Əliyev adına tam orta məktəbdə müəllim əməyi də daim yüksək qiymətləndirilir. Yaradılan hərtərəfli şəraitdən bəhrələnən pedaqoji kollektiv dövlətçiliyimizə sadiq ruhda gənc və savadlı kadr yetişməsinə öz töhfəsini verməyə çalışır.

Digər müsahibimiz Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi ***Elnarə Məmmədova*** bildirdi ki, Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulmuş inkişaf strategiyası Prezident cənab İlham Əliyev tərəfindən böyük qətiyyət və uğurla davam etdirilir. Son illərdə müəllim nüfuzunun, müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi istiqamətində ciddi addımlar atılır. Müəllimlərin işə qəbulu qaydaları şəffaflıq və obyektivlik baxımından əhəmiyyətli şəkildə təkmilləşdirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev son illərdə müəllimlərlə bağlı həyata keçirilən fəaliyyəti yüksək qiymətləndirir. Müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi sahəsində sistemli tədbirlər həyata keçirilir. İstedadlı uşaqlarla iş sahəsində görülmüş işlər nəticəsində respublika və beynəlxalq səviyyəli olimpiadalarda şagirdlərimizin uğurları ildən-ilə artır. Fəaliyyət göstərdiyim Heydər Əliyev adına tam orta məktəbin şagirdləri də keçirilən olimpiadalarda yüksək nəticələr göstəriblər.

*Əminliklə demək olar ki, Ulu Öndər ideyaları üzərində müasir dövrün çağırışlarına uyğun həyata keçirilən təhsilin inkişafı üzrə Dövlət strategiyasına və ölkəmizin inkişaf konsepsiyasına uyğun olaraq növbəti illərdə Azərbaycan təhsili keyfiyyət göstəricilərinə, əhatəliliyinə və rəqabət qabiliyyətinə görə aparıcı təhsil sistemlərindən birinə çevriləcəkdir. Muxtar respublikada fəaliyyət göstərən təhsil ocaqları, o cümlədən Heydər Əliyev adına tam orta məktəb də əldə olunan uğurlarda, nailiyyətlərdə böyük pay sahibi olacaq.*

**Bülbül QULİYEVA**

***Məqalə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə keçirilən “Dahilik zirvəsi” esse müsabiqəsinə təqdim edilir***

*Üzümüzə açılan günəşli gündüzlər, üzümüzə qapanan zülmət qaranlıqlar. Hər gecə sivilizasiyanın məhşərə danışdığı ölümsüz kitablar və hər səhər yeni ümidlərlə nəfəsi qoxan şəhər...Mən bu şəhərin aşiqi, mən bu kitabxanaların və kitabların vurğunuyam.*

# “Kitablardan pıçıltılar”



Yalqızlığın zamanda gecələdiyi pandemiya dönəmlərinə getdi xəyalım. Onlarla könüllü onlayn kitab müzakirəsinə qoşulur, oxucular böyük ümidlə zamansız və məkansız olaraq “kitablardan pıçıltılar”ı gözləyirdilər. Bizim oxucularla dostluğumuz və sevgimiz elə o zamandan başladı. Könüllülər, sözün əsl mənasında, kitabxanaya səfərbər oldu. Bəzən saatlarca ilişib qalmaqdı səhər saat doqquza, axşam saat on birə və hər gün yuxudan durarkən saralmış səhifələri oxuyub doymamaqdı kitab sevgisi. Sonra... sonra dərsdən əvvəl və sonra kitabxanalarda kitablarla söhbət etmək. Ümidlər daha çox kitab şəklində ortaya çıxır. Fransa sirri səthin ölçülərində axtaran kubist Pikassonu yetişdirəndə, İngiltərə həmin sirri səthləri yaradan atomların daxilində axtaran Ceyms Çedviki yetişdirdi. Onun neytronu kəşf etməsi XX əsrdə ilk dəfə nüvə enerjisindən istifadəyə yol açdı. Artıq möcüzə yaratmaq qüdrəti sənətin, dinin deyil, elmin əlində idi. Bu da əsərlərin deyil, müəlliflərin təkamülə uğramasına işarə edirdi. “Pikassonun uğuru və uğursuzluğu” kitabında Con Bercer Əndəlüslü rəssamın şöhrətini fransız və ingilis həmkarları Jan Fransua Mille və Con Everet Millenin, yaxud Çarli Çaplinin kinodakı şöhrəti ilə müqayisə edərək yazır ki, Pikassodan fərqli olaraq bu sənət adamlarını bütün dünyada əsərləri ilə tanıyırdılar, amma həmin dünyada Pikasso adını əzbər bilənlərin arasında onun hər hansı əsərinin adını xatırlayan yüz nəfərdən biri olar, ya olmazdı.

Əgər Viktor Hüqo adlı fransız yazıçısı olmasaydı, bir neçə il əvvəl yanıb kül olan Notr-Dam kilsəsinin halına yananların çoxu nə vaxtsa Parisdə belə bir kilsənin tikildiyindən xəbərsiz olacaqdılar. Ona görə yox ki, məşhur Hüqonun “Paris Notr-Dam kilsəsi” adlı əsəri var, ona görə ki, hələ XIX əsrin əvvəllərində Paris Şəhərsalma İdarəsinin məmurları uçub-dağılmış viranə görünüşü ilə Parisin gözəlliyinə “xələl gətirdiyi” üçün bu kilsəni sökməyə qərar vermişdilər. Xəbəri qəzetdən oxuyan Hüqo bu müqəddəs abidəni qorumaqdan ötrü altı ay ərzində məşhur “Paris Notr-Dam kilsəsi” romanını yazdı və romandakı “məhəbbət üçbucağı” parisliləri elə heyran qoydu ki, romanın nəşrindən sonra kilsənin qədim şöhrəti, “uçub-dağılmış” müqəddəsliyi sanki bir anda yenidən özünə qayıtdı.

Xalqın kilsəyə “yenidən doğulan” sevgisini görən məmurlar tarixi binanı sökməyə cəsarət etmədilər, çünki Hüqo Kvazimodonun Esmeraldaya olan sevgisi ilə İsanın “itkin düşmüş” ruhunu yenidən kilsəyə qaytarmışdı.

Realist yazıçı Mirzə Fətəli Axundov belə bir ideya irəli sürürdü: “Əgər daşın qızıla çevrilməsini istəyirsinizsə, onda meymunu yaddan çıxarmalısınız”. İnsanları birləşdirən məkan və zaman yox, duyğular və hiss etdiklərdir. Deməli, eyni duyğuları yaşayanlar, eyni məkanda öz hisslərini bölüşür, özlərini layiq olduğu yerdə tamamlayır.

Kitab deyərkən, ilk növbədə, hər birimizin ağlına bədii ədəbiyyat gəlir. İnsanın insan kimi formalaşıb şəxsiyyət kimi yetişməsində və müstəqil fikrə sahib olmasında oxumaqdan artıq nəyin rolu ola bilər ki?! Kitabların həyatımızdakı rolu danılmazdır. Əslində, onların ən böyük dəyəri bizə xəyal qurmağı öyrətməsindədir. Kitab xəyal gücü sərhədsiz olan alternativ dünyadır. Yaxşı kitabın mütaliəsi iz buraxdığı hər bir əşyada paslanır. Şüurumuzda kəlmələrin yeri qalır. Bugünkü düşüncələrə sahiblənməyimizə, həmçinin gələcəkdə həyatımızda verəcəyimiz qərarlara, atacağımız addımlara səbəb oxuduğumuz kitablardır. Kitab həm də insanın içində gizli qalan dəyərləri üzə çıxarmaq, daha da cilalamaq, doğru yolu göstərmək xüsusiyyətinə malikdir.

Hər bir oxucunun öz kitab dünyası ilə bağlı saysız-hesabsız xatirəsi, arzusu var. Eko və Karyerin “Kitablardan qurtula biləcəyinizi sanmayın” kitabında deyilir: “Kitab eynilə qaşıq, çəkic, təkər və ya qayçı kimidir. Bir dəfə icad etdikdən sonra daha yaxşısını düzəldə bilməzsiniz”. Yaşadığımız zaman kəsiyində informasiya-kommunikasiya texnologiyalarının inkişafı bizə kağız kitabların alternativlərini təqdim edir ki, onların da üstünlükləri danmaq olmaz. Kitab oxumaq texnologiyanın yeniliklərinə qapalı olmaq yox, əksinə, ona bir az da yaxın olmaqdır. İctimai nəqliyyatda kitab oxumaq imkanından məhrum olduğumuz vaxt telefondan səsli kitab dinləməyin nəyi pisdir ki? Yaxud kitabxana və mağazalarda tapa bilmədiyimiz kitabları internetdən PDF-ni endirib oxumaqla nə qədər irəli düşdüyümüzü necə dana bilərik? Bununla belə insanın təbiətən sevdiyinə toxunmaq, yaxud toxunduğunu daha çox sevmək kimi bir cəhəti də var – vərəq-vərəq çevirdikcə toxunduğumuz, oxuduqca qoxusunu hiss etdiyimiz kitablar bizə daha əzizdir. Oxuyub kiməsə, yaxud kitabxanaya qaytarmalı olmadığımız kitablar isə özündə mütaliə zamanının enerjisini, ruhunun qırıq-tökük xatirələrini daşıyır. Onları müəyyən müddət sonra götürüb vərəqləyəndə sanki eyni hadisələri, hissləri təkrar-təkrar yaşamış oluruq.

Karlos Mariya Domingez “Kağız ev” povestində yazır ki, Hessenin “Demian” əsəri sayəsində minlərlə gənc hinduizmə tapındı, Heminquey onları idmançılara çevirdi. Düma minlərlə qadının həyatını alt-üst etdi və həmin qadınları kulinariya kitabları xilas etdi. Bəşəriyyətin kitablara münasibəti hər zaman ziddiyyətlərlə dolub-daşıb. Hegel fəlsəfəsi bizə öyrədib ki, təbiətdə hər şey öz ziddi ilə mövcuddur. Həyat boyu belə də davam edəcək. Xeyirlə şərin mübarizəsi kimi. Makedoniyalı İsgəndər Əhəməni imperiyasına hücum edərkən minlərlə kitabın saxlanıldığı, arasında “Avesta”nın da olduğu kitabxananı yandırdı. Yuli Sezarın hücumu nəticəsində İsgəndəriyyə kitabxanası yandı, deyilənlərə görə, kitabxanada 700 min kitab var idi. Nasistlər Almaniyada hakimiyyətə gələrkən “Cinsi münasibətlərin araşdırılma institutu”nun kitabxanasını, arxivini yandırdı. Şri-Lankadakı Caffna xalq kitabxanasında 1981-ci ildə səbəbi bilinməyən yanğın nəticəsində 90 min kitab məhv oldu. 1984-cü ildə kitabxana yeniləndi, təmir olundu, ancaq xalq arasındakı silahlı toqquşmalar zamanı kitabxana döyüşçülərin iqamətgahına çevrildi və bir daha dağıldı, xarabalığa döndü. 2004-cü ildə hökumətin və xeyirxah adamların dəstəyi nəticəsində kitabxana yenidən istifadəyə verildi. Misirin “Bilgi məbədi” Ərəb baharı zamanında atılan Molotov kokteyllərinə görə yandı. Tarixdə bir çox hökmdarların hücumları nəticəsində kitabxanalar yandırılıb, minlərlə kitab məhv edilib. Ancaq sonra kitabxanaları yandıran həmin hökmdarlar haqqında yüzlərlə, minlərlə kitablar yazılıb. Kitab yandıran adamlara kitablar həsr edilib.

Amerika yazıçısı Donald Bartelmin də dediyi kimi: “Sənət ona görə çətin deyil ki, çətin olmağa çalışır, ona görə çətindir ki, (incə) sənət olmağa can atır. Son nəfəs qədər incəlir, içi büsbütün həsrət, qüssə və dərdlə dolu nəfəs qədər”.

Qışda çantamızda, yayda bağrımızın başında daşıdığımız kitablara əyilərək qalxa bilərik layiq olduğumuz yerə. Kitabların içində yaşamaq qəribə hissdir, səni heç zaman tərk etmir. Kitab olan adamlar da var, tək-tük. Hərdən öz-özünə açılır, örtülür, hərdən də başını dik tutub gəzdiyi yerdə içindən yıxılır və durmur.

Gəlin ruhumuzun səssizliyini eşidib pıçıltılarımızı dualarımız ilə bu mavi məbəddə Allaha çatdıraraq “kitab adam” olaq. Bizi bizə oxuyan kitablara əyilərək ucalmaq varkən bu yolla məğrurlaşaq. Gəlin bizim olana nəfəs olaq, can olaq. Ramiz Rövşənə hər gün yeni bir “nəfəs”, İlqar Fəhmiyə hər gecə “misra-misra” elegiya, Mir Şahinə “Heç nə haqqında hər şey” olaq. “Ovod”a ümid, “Sevil”ə azadlıq, “Dumanlı Təbriz”ə Günəş olaq. Hər birimiz bir Qutenberq, hər birimiz bir kitab olaq. Biz oxuyaq, onlar desin: bizi oxu...bizi oxu!!!

**Fariz ƏHMƏDOV**
***Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasının direktoru***

## Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş yarışlar keçirilib



Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin təşkilatçılığı ilə muxtar respublikada fəaliyyət göstərən məhkəmələr arasında minifutbol turnirinə start verilib. Tədbir Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla anılması ilə başlayıb, daha sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirin açılışında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədr müavini Əsgər Novruzov çıxış edərək Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş turnirin məqsədləri barədə məlumat verib, komandalara uğurlar arzulayıb.

Qeyd edək ki, ölkəmizdə bütün digər sahələrdə olduğu kimi, idmanın inkişafına da böyük diqqətlə yanaşmış Ulu Öndər Heydər Əliyevin xatirəsinin anılması, eləcə də sağlam həyat tərzinin təşviqi məqsədilə təşkil edilən turnirdə 8 komanda dörd qrupda mübarizə aparır. Qaliblər 9 may 2023-cü il tarixdə keçiriləcək final mərhələsinin yekununda müəyyənləşəcək.

***

Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının təşkilatçılığı ilə Naxçıvan Şahmat Mərkəzində Mərkəzi Seçki Komissiyası və muxtar respublikada fəaliyyət göstərən dairə seçki komissiyalarının əməkdaşları arasında şahmat yarışı keçirilib.



Açılış mərasimində Ulu Öndərin əziz xatirəsi, eləcə də Azərbaycanın müstəqilliyi və azadlığı uğrunda canından keçmiş şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edilib.

Mərkəzi Seçki Komissiyasının akt zalında qaliblərin mükafatlandırılması mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Əjdər Əliyev bildirib ki, Azərbaycana rəhbərlik etdiyi uzun illər ərzində Ümummilli Lider idmanın inkişafına daim böyük qayğı göstərib və məhz onun təşəbbüsü ilə respublikamızın şəhər və rayonlarında çoxsaylı Uşaq-gənclər şahmat məktəbləri istifadəyə verilib, ölkəmizdə güclü şahmat məktəbi yaradılıb. Bu proses indi də davam edir və şahmatın inkişafı dövlət başçısı cənab İlham Əliyevin daim diqqət mərkəzindədir.

Yarışın yekun nəticəsinə əsasən Babək Məmmədov qalib adını qazanıb. Niyaz Əsgərov ikinci, Əli Qədimov üçüncü olub. Qaliblər fəxri fərman və hədiyyələrlə mükafatlandırılıblar.

**Xəbərlər şöbəsi**

## Amerikada yaşayan naxçıvanlı cüdoçunun növbəti uğuru



ABŞ-ın Kaliforniya ştatında (Azusa şəhəri) cüdo üzrə 31-ci “Golden State Open” turniri keçirilib. 28-30 aprel tarixlərini əhatə edən yarışda kiçiklər, yeni başlayanlar, böyüklər və veteranlar iştirak ediblər.

Həmyerlimiz Oğuzxan Quliyev turnirdə 42 kiloqramdan aşağı çəki dərəcəsində Azərbaycanı təmsil edib. İdmançımız ilk iki görüşündə erməni rəqibləri Tiqran Sukiasyan və Davit Deqoyanı məğlub edərək finala adlayıb. Həlledici mərhələdə rəqib erməni klubunu təmsil edən monqol idmançısı Tengis Batbaatar olub. Reqlamentə görə qalib iki görüşün nəticəsinə görə bəlli olub. Təmsilçimiz hər iki cəhddə rəqibini “ippon”la məğlub edərək qızıl medala layiq görülüb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Aksiz markası ilə markalanmayan külli miqdarda siqaret aşkar edilib



Naxçıvan Baş Gömrük İdarəsinin əməkdaşları qanunsuz yollarla ölkə ərazisinə gətirilən və Azərbaycan Respublikasının aksiz markası ilə markalanmayan külli miqdarda siqaret aşkar ediblər. Belə ki, daxil olmuş məlumat əsasında Naxçıvan Baş Gömrük İdarəsinin Əməliyyat və İstintaq İdarəsinin əməkdaşları Şərur rayon sakinindən müxtəlif adlarda, ümumilikdə, 163 600 ədəd aksiz markası ilə markalanmayan siqaretlər aşkar ediblər.

Faktla bağlı araşdırma aparılır.

***Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsi***

## Növbəti buraxılış imtahanı olub

*Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi aprelin 30-da ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə növbəti buraxılış imtahanı keçirib.*



İmtahan keçirilən şəhər və rayonlarda, ümumilikdə, 208 imtahan binası, 3664 imtahan zalı ayrılıb. 48 mindən çox şagirdin iştirak etdiyi imtahanların idarə olunmasına 600 imtahan rəhbəri və ümumi rəhbər, 4533 nəzarətçi-müəllim, 669 buraxılış rejimi əməkdaşı (mühafizə), 208 bina nümayəndəsi ayrılıb. İmtahanlarda iştirak edən nəzarətçilər, imtahan rəhbərləri, mühafizə əməkdaşları ilə onlayn şəkildə təlim-seminarlar keçirilib.

Naxçıvan Muxtar Respublikasında imtahanlar 18 binada təşkil edilib. 4653 şagirdin iştirak etdiyi imtahan 386 zalda keçirilib. Onun idarə olunmasına 58 rəhbər, 463 nəzarətçi ayrılıb. İmtahan $11^{00}$-da başlayıb və 3 saat davam edib. Bütün imtahan binalarına baxış keçirilib, imtahan zallarında şagirdlərin rahat şəkildə imtahan verməsi üçün zəruri şərait yaradılıb.

Nəticələrin bir ay ərzində elan olunması nəzərdə tutulur.

**Güntac ŞAHMƏMMƏDLİ**

### *İtmişdir*

Naxçıvan şəhəri, “İstiqlal” küçəsi bina 87, mənzil 12 ünvanında Musayeva Zərifə Həsən qızının adına olan 5028 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Hüseynov Seymur Əqil oğlunun adına olan JN-421[A] inventar nömrəli, 10205038 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Ərəbyengicə kənd sakini Məcnunov Mənsur Kərəm oğlunun adına olan JN-80 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 308